
YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

14 noyabr 2026-cı il, şənbə
№ 208 (7275)
Qiyməti 60 qəpik



Milli azadlıqdan şirin nemət yoxdur!

A.S. (Ante Skriptum)

Mövcud şəraitdə Azərbaycan xalqının və dövlətinin bir əsas resursu var - İlham Əliyevin siyasi fəhmi!

Növbəti strateji tərəfdaşlıq...

Azərbaycan ilə Böyük Britaniya arasında münasibətlər yeni mərhələyə qədəm qoyur



Bax səh. 3

Dublin sammiti: Azərbaycanın Avropa siyasi dialoqunda artan rolu

Bax səh. 2-3

Sadiq və etibarlı enerji təchizatçısı

Prezident İlham Əliyev "Avropa Siyasi Birliyi"nin 9-cu Zirvə Toplantısı çərçivəsində keçirilən "Rəqabətqabiliyyətli Avropanın yaradılması - innovasiya, bağlantılar və əlçatan enerji" mövzusunda dəyirmi masada çıxışı zamanı Azərbaycanın dünya ölkələrinin enerji təhlükəsizliyində oynadığı müstəsna rola toxunub. Cənub Qaz Dəhlizinin və onun mühüm tərkib hissəsi olan Trans-Adriatik Boru Kəmərinin (TAP) Avropanın enerji təhlükəsizliyindəki roluna xüsusi diqqət yetirib. Bildirib ki, hazırda Azərbaycanın qaz nəql etdiyi ölkələrin sayı 16-ya bərabərdir, onların əksəriyyəti Avropa İttifaqına üzv olan ölkələrdir. Bu gün yeddi ölkənin ərazisindən keçən və Bolqarıstandakı interkonnektorlar vasitəsilə Avropa İttifaqının 10 ölkəsini təchiz edən və Bakıdan İtaliyaya qədər uzanan boru kəməri tamamilə doludur. Kəmərin genişləndirilməsi nəticəsində Yunanıstana və İtaliyaya gedən kəmərin ötürmə gücünün 10 milyard kubmetrdən 11,2 milyard kubmetrə qədər artacaq.

Yüksək etimad və sadiq tərəfdaşlığın nəticəsidir ki, Avropa Komissiyası Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa enerji təchizatçısı kimi tanıyır. Respublikamızdan nəql olunan neft və qaz bir çox ölkələrin enerji təhlükəsizliyində və möhkəmləndirilməsində böyük dəyişiklik yaradır. Hazırda boru kəmərləri vasitəsilə qaz ixracının coğrafi əhatəsinə görə, Azərbaycan dünyada birinci yerdədir. Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində əsaslı hüquqi çərçivə olan 2022-ci ildə imzalanmış Anlaşma Memorandumunun tələblərinə...

Bax səh. 4



YAP Mərkəzi Aparatında görüş

Bax səh. 5

TÜRKPA uğurlu platformadır

Bax səh. 5

Təhsildə yeni planlar

Bax səh. 6

Sahibkarlar üçün "Yaşıl kredit"

Bax səh. 6

Sülh danışıqlarının Dublin mərhələsi...

2020-ci il Vətən müharibəsi bütövlükdə Cənubi Qafqazın geosiyasi mənzərəsini dəyişdi. Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. Bununla da regionda uzun illər davam edən münaqişə mərhələsi arxada qaldı və yeni inkişaf dövrünün təməli qoyuldu. Müharibədən sonrakı mərhələdə formalaşan reallıqlar təkcə Azərbaycan üçün deyil, bütün region ölkələri üçün yeni imkanlar yaradıb. Ən vacib məqamlardan biri isə ondan ibarətdir ki, Bakı əldə etdiyi hərbi-siyasi üstünlüyü revanşizm və qarşıdurma siyasətinə deyil, əməkdaşlıq və qarşılıqlı faydalı münasibətlər sisteminin qurulmasına yönəldib. Yeni dövrdə sülh prosesinin daha da inkişaf etdirilməsi İrəvan üçün də bölgənin yeni konfiqurasiyasında əsaslı rol vəd edir. Yaranan fürsətdən istifadə edə bilsə, İrəvan gələcəkdə müstəqil siyasi xətt, iqtisadi azadlıq əldə edə biləcək.

Noyabrın 12-də İrlandiyanın Dublin şəhərində keçirilən "Avropa Siyasi Birliyi"nin 9-cu Zirvə Toplantısı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanın Baş naziri Nikol Paşinyan ilə görüşüb. Görüşdə 2025-ci il avqustun 8-də keçirilmiş Vaşinqton Sülh Sammitinin nəticələrinə və həmin tədbirdə imzalanmış Vaşinqton Birgə Bəyannaməsinə əsaslanaraq, Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəlilədilməsi ətrafında fikir mübadiləsi, iki ölkə arasında sülhün daha da möhkəmləndirilməsinə yönəlmiş praktiki addımlara, o cümlədən nəqliyyat və tranzit əlaqələrinin inkişafına, iqtisadi-ticari münasibətlərə, sərhədlərin...

Bax səh. 4



Format dəyişir...
Nəticəsi nə olacaq?

Bax səh. 7



İspaniyada hakimiyyət dəyişə bilər

Bax səh. 7

Dublin sammiti: Azərbaycanın Avropa siyasi dialoqunda artan rolu

Son illərdə ölkəmizlə bağlı izlənilən proseslər onu deməyə əsas verir ki, Azərbaycan artıq regional aktor olmaq çərçivəsindən kənara çıxıb. Qürurverici haldır ki, bu gün respublikamız dünyada orta güc dövləti kimi qəbul olunur. Ölkəmiz özünün geniş imkanlarını təqdim etməklə və qətiyyətli siyasi iradə ortaya qoymaqla regional və qlobal əhəmiyyətli məsələlərin həllində, dünyada həmrəylik və anlaşma mühitinin formalaşmasında mühüm rol oynayır.

Belə fəal diplomatik gedişlər, məqsədyönlü şəkildə aparılan çoxvektorlu xarici siyasət kursu respublikamıza beynəlxalq miqyasda böyük nüfuz qazandırıb. Diqqətçəkən mühüm məqamlardan biri də ondan ibarətdir ki, respublikamızın Qlobal Cənubla Qlobal Şimal arasında körpülər qurulmasına davamlı töhfələr verməsi, müxtəlif qütbləri daim bir araya gətirməyə çalışması və buna nail olması Azərbaycana həm geniş İslam coğrafiyasında, həm də Avropa İttifaqı (Aİ) məkanında böyük hörmət qazandırıb. Son vaxtlarda Prezident İlham Əliyevin bu iki fərqli qütbə aid siyasi və iqtisadi platformalara fəxri qonaq qismində dəvətlər alması bunun əyani təsdiqidir.

Bu baxımdan dövlətimizin başçısının Avropa Siyasi Birliyinin (ASB) sammitlərində ardıcıl olaraq iştirak etməsi də diqqət çəkir. Azərbaycan Avropa İttifaqının üzvü olmasa da, ASB çərçivəsində aparılan müzakirələrə qatılır ki, bu da ölkəmizin qlobal səviyyədə nüfuzunun və rolunun artmasının əyani təsdiqidir. Son olaraq Prezident İlham Əliyev Avropa Siyasi Birliyinin bu günlərdə İrlandiyanın paytaxtı Dublində keçirilən 9-cu sammitinə qatılıb.

Qeyri-rəsmi hökumətlərarası dialoq platforması

Əsası 2022-ci ilin oktyabrında Praqada qoyulan Avropa Siyasi Birliyi Aİ-yə üzv olan və olmayan ölkələri ümumi siyasi və strateji məsələlər ətrafında birləşdirən qeyri-rəsmi hökumətlərarası dialoq platformasıdır. Onun əsas məqsədi siyasi məsləhətləşmələri genişləndirmək, ortaq çağırışlara münasibətdə əməkdaşlığı inkişaf etdirmək, Avropa qitəsinin təhlükəsizliyinə, sabitliyinə və rifahına töhfə verməkdir.

Sirr deyil ki, rəsmi platformalarda müzakirələr müəyyən çərçivələr nəzərə alınmaqla keçirilir və qəbul olunan qərarların icrası da məcburi sayılır. ASB belə çərçivələrdən və məhdudiyyətlərdən kənar bir platformadır. Qurumun mahiyyətini müəyyən edən başlıca xüsusiyyət onun qeyri-rəsmi və məşvərətçi xarakter daşımasıdır. Bu çərçivədə qurulan dialoq masalarının üstünlüyü ondadır ki, liderlər regionun gələcəyini necə görmək, ittifaq daxilində və ondan kənarda əməkdaşlığı necə inkişaf etdirməklə bağlı baxışlarını sərbəst şəkildə ortaya qoyurlar. Təbii ki, bu baxışlar ümumi məqsədə xidmət edir. Onların gələcək birgə fəaliyyətlərdə nəzərə alınması və yaxud rəsmi siyasətin hansısa bir istiqamətinə çevrilməsi ehtimalı da böyükdür. Bu formatın səmərəliliyi yeni qərar qəbuletmə strukturu yaratmaqdan daha çox, mövcud beynəlxalq mexanizmlər arasında siyasi dialoqu və qarşılıqlı anlaşmanı gücləndirmək imkanları ilə bağlıdır.

Azərbaycanın dövlət başçısının bu platformada keçirilən müzakirələrə ardıcıl olaraq dəvətlər alması bir tərəfdən Prezident İlham Əliyevin yüksək liderlik keyfiyyətləri, digər tərəfdən isə Azərbaycanla Avropa İttifaqı arasında münasibətlərin kifayət qədər yüksək səviyyədə olması ilə bağlıdır. Respublikamız Aİ-nin üzvü olmasa da, ikitərəfli siyasi dialoq, həmçinin iqtisadi tərəfdaşlıq güclü dinamikaya malikdir. Prezident İlham Əliyev Aİ rəsmiləri ilə Bakıda, Brüsseldə və digər paytaxtlarda müntəzəm görüşlər keçirir və qarşılıqlı əməkdaşlıqla bağlı aktual müzakirələr aparır. İndiki gərgin geosiyasi və geoiqtisadi vəziyyətdə belə Azərbaycanın ədalətli enerji siyasətinə sadiq qalması Avropa məkanında yüksək dəyərləndirilir. Ölkəmizin Avropa üçün önəmi böyükdür. Belə ki, respublikamız həm etibarlı enerji tərəfdaşıdır, həm də müasir və şaxələndirilmiş nəqliyyat marşrutlarına malikdir. Qoca qitə zamanında Azərbaycan rəhbərliyinin qətiyyətli siyasi iradəsi əsasında qurulan bu nəqliyyat-infrastrukturu ilə eyni zamanda Mərkəzi Asiyanın resurslarına çıxış imkanı qazanıb. Beləliklə, Azərbaycan vasitəsilə Avropanın yeni enerji xəritəsi formalaşmaqdadır. Respublikamız həmçinin son dərəcə əlverişli coğrafi mövqeyi ilə Avropa ilə Asiya arasında təbii körpü rolunu oynayır. Azərbaycan son illərdə qurduğu müasir nəqliyyat-logistika şəbəkəsi ilə - bura dəniz limanları, güclü donanma, avtomobil və dəmir yolları, hava nəqliyyatı və s. daxildir - Avropaya geniş bağlantı imkanları təqdim edir.

Digər bir önəmli cəhət isə ondan ibarətdir ki, Azərbaycan indiyədək Aİ-də təmsil olunan 10 dövlətlə strateji tərəfdaşlıq münasibətləri qurub. Bu münasibətlər ikitərəfli platformalar vasitəsilə uğurla inkişaf etdirilir və tərəflər bundan böyük fayda götürürlər.









Praqadan Dublinədək keçilən yol

Avropa Siyasi Birliyi çərçivəsində ilk dialoq masası 2022-ci ilin 6 oktyabr tarixində Çexiyanın Praqa şəhərində qurulub. Bu, qoca qitənin zəngin ənənələrə malik siyasət tarixində bir başlanğıc idi. Həmin müzakirələrin Azərbaycan üçün xüsusi önəmi ondan ibarətdir ki, məhz bu masada respublikamızın keçmiş Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tarixi ədalətə və beynəlxalq hüquqa əsaslanan mövqeyi öz təsdiqini tapdı. Prezident İlham Əliyevin düzgün hesablanmış diplomatik gedişləri sayəsində Ermənistan ölkəmizin ərazi bütövlüyünü (1991-ci ildə qəbul edilmiş Alma-Ata bəyannaməsinə istinadla) tanıdı və Qarabağı Azərbaycanın ayrılmaz bir hissəsi kimi qəbul etdi. Bu, bütövlükdə Cənubi Qafqaz üçün ciddi təhdidlər yaradan otuz illik münaqişənin tarixində bir dönüş nöqtəsi, ermənilərin "miatsum" xülyalarının suya düşüb əriməsi demək idi. Bizim üçün mühüm əhəmiyyət daşıyan ərazi bütövlüyü məsələsi Avropanın aparıcı dövlətlərinin və siyasi institutlarının rəhbərlərinin iştirakı ilə müzakirə edildi. Dördtərəfli görüşün sonunda qəbul edilən bəyannamədə ərazi bütövlüyü məsələsi bir daha təsdiqləndi. Bu, 44 günlük müharibənin nəticələrinə əsasən yaranan yeni reallıqların Avropa platformasında da qəbul edilməsi demək idi. Halbuki həmin tarixədək bəzi Avropa paytaxtlarında və institutlarında Azərbaycanın ərazi bütövlüyü məsələsi, müharibənin nəticələri heç bir hüquqi əsas olmadan mübahisələndirilirdi və ölkəmiz ədalətsiz şəkildə qınaq obyektinə çevrilirdi. Praqa sammiti belə ədalətsiz və selektiv yanaşmalara birdəfəlik son qoydu.

Prezident İlham Əliyevin Praqadakı diplomatik zəfəri bununla bitmir. Xatırlayaq ki, o dövrdə Aİ-nin müşahidə missiyasının Azərbaycan-Ermənistan sərhədinə yerləşdirilməsi məsələsi gündəmə gətirilmişdi. Dövlətimizin başçısı müzakirələrdə qətiyyətli siyasi iradə ortaya qoymaqla buna qarşı çıxdı və missiya sadəcə Ermənistan ərazisinə yerləşdirildi. İndiyədək də bu missiyanın nə işlə məşğul olduğu bəlli deyil.

ASB-nin 2023-cü ildə Moldovada keçirilən ikinci sammitində Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması, sərhədlərin delimitasiyası, kommunikasiyaların açılması məsələləri müzakirə edildi. Eyni ilin oktyabr ayında Qranadada keçirilən sammitdə Prezident İlham Əliyevin iştirak etməməsi Azərbaycanın mövqeyinin açıq şəkildə ifadəsi idi. Praqa sammitində qəbul olunan bəyannaməyə baxmayaraq, Fransa hələ də Ermənistana tərəfkeşlik edirdi. Eyni zamanda, qardaş Türkiyə sammitə dəvət almamışdı. Məhz bu kimi adekvat olmayan davranışlar da Azərbaycanın öz mövqeyini açıq şəkildə ortaya qoymasına və tədbirə qatılmamaq qərarı verməsinə əsas oldu.

Azərbaycan milli maraqlarını qətiyyətlə müdafiə edən bir dövlətdir. Ölkəmiz hər zaman müstəqillik və suverenlik prisiplərindən çıxış edir. Hansısa vədlərlə və təzyiq cəhdləri ilə Azərbaycanı öz prinsiplərindən döndərmək əsla mümkün deyil.

2024-cü ildə İngiltərədə keçirilən sammitdə artıq Azərbaycanla Avropa arasında iqtisadi və enerji müzakirələri ön plana çıxdı. Dünyada baş verən proseslər, Rusiya-Ukrayna müharibəsi, beynəlxalq marşrutlardakı ləngimələr və əngəllər Avropanı enerji mənbələrini şaxələndirməyə vadar edirdi. Belə bir dövrdə Azərbaycan Avropanın kəskin ehtiyaclarını qarşılamağa töhfə vermək imkanlarına malik olan azsaylı ölkələrdən biri idi.

2025-ci ildə Tiranada keçirilən sammitdə Aİ rəhbərliyi 2026-cı ilin may ayında sammitin Ermənistanda keçirilməsi təklifi ilə bağlı Prezident İlham Əliyevin fikrini öyrəndi və dövlətimizin başçısı bu təklifi dəstəklədi. Bununla da Azərbaycanın 2028-ci ildə ASB sammitinə ev sahibliyi edəcəyi ilə bağlı qarşılıqlı razılaşmanın əsası qoyuldu.

2026-cı il mayın 4-də İrəvanda keçirilən səkkizinci sammitdə Prezident İlham Əliyev videobağlantı formatında çıxış edərək Azərbaycanla Ermənistan arasında tənzimləmə prosesinin təfərrüatlarını açıqladı. 2025-ci il avqustun 8-də Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə iki ölkə arasında yekun sülh sazişinin paraflanmasından sonra regiona real sülh gəlib. Artıq şərti sərhədlərdə atəş səsləri eşidilmir. Azərbaycan sülhə sadiqliyinə əlavə dəstək olaraq öz ərazisindən Ermənistana üçüncü dövlətlərin yüklərinin daşınmasına imkan yaradıb, eyni zamanda bu ölkəyə strateji əhəmiyyətli enerji məhsullarının ixracına başlayıb. Bütün bunlar Azərbaycanın niyyətini ifadə edir. Müharibə başa çatandan sonra sülh təşəbbüsü ilə çıxış edən tərəf məhz qalib Azərbaycan olub, sonrakı mərhələdə proses yenə də Prezident İlham Əliyevin davamlı səyləri ilə məntiqi sonluğa doğru irəliləyib.

Çox doğru olaraq ASB-nin 2026-cı ilin 12 noyabr tarixində İrlandiyanın paytaxtı Dublin şəhərində keçirilən sayca 9-cu sammiti Azərbaycan - Avropa münasibətlərində keyfiyyətcə yeni bir mərhələyə keçid kimi dəyərləndirilir. Bu dəfə "Güclü, təhlükəsiz və əlaqəli Avropa" devizi sammitin mövzusu seçilib. Gündəlikdə qitənin təhlükəsizlik problemləri, iqtisadi rəqabətqabiliyyətliliyi, innovasiya, enerji və nəqliyyat bağlantıları yer alıb. Bu platformanın əsas üstünlüyü Aİ üzvləri ilə yanaşı, digər Avropa ölkələrini də əhatə etməsidir. Azərbaycan bu platformaya qoşulmaqla öz həqiqətlərini beynəlxalq birliyin diqqətinə çatdırmaq üçün yeni imkanlar qazanır. Dublin sammitinin ölkəmiz üçün önəmi həm də ondan ibarətdir ki, tədbirdə Azərbaycanın 2028-ci ildə ASB-nin növbəti sammitinə ev sahibliyi edəcəyi bir daha təsdiqlənib.

Eyni zamanda, bu platforma çərçivəsində Cənubi Qafqazda sülh və əməkdaşlıq məsələsi daim diqqət mərkəzində saxlanılır. Bu baxımdan Dublin sammiti də istisnalıq təşkil etməyib. Avropa liderləri Azərbaycan və Ermənistan arasında sülh prosesinə dəstəklərini növbəti dəfə təsdiqləyib, 2025-ci ilin avqustunda Vaşinqtonda keçirilən görüşdən sonra əldə olunmuş əhəmiyyətli irəliləyişi qeyd edib, iki ölkə xalqlarının və bütün regionun maraqları naminə münasibətlərin normallaşdırılması istiqamətində səyləri davam etdirməyə çağırıblar.

Azərbaycan yenə də diqqət mərkəzində olub

Əvvəlki tədbirlərdə olduğu kimi, Dublin sammitində də Azərbaycan diqqət mərkəzində olub. Bunu Prezident İlham Əliyevin qarşı tərəflərin istəyi ilə ayrı-ayrı dövlətlərin yüksəksəviyyəli rəsmiləri ilə çoxsaylı görüşlərə qatılması bir daha təsdiqləyir. Dövlətimizin başçısı noyabrın 12-də Dublində Rumıniya Prezidenti Nikuşor Dan ilə görüşüb. Görüşdə Prezident İlham Əliyev münasibətlərimizin strateji tərəfdaşlıq zəminində inkişaf etdiyini deyib və əlaqələrimizin daha da genişləndirilməsi üçün böyük imkanların olduğunu vurğulayıb.

Dövlət başçıları ikitərəfli müzakirələrə əsaslanaraq, strateji tərəfdaşlığımızın dərinləşdirilməsinə, əsas enerji və bağlantı layihələrinin irəlilədilməsinə, həmçinin ortaq siyasi və iqtisadi gündəliyin həyata keçirilməsinə dair fikir mübadiləsi aparıblar. Liderlər birbirini qarşılıqlı səfərlərə dəvət ediblər.

Görüşdə Azərbaycanın Rumıniya üçün və Avropanın enerji təhlükəsizliyi baxımından mühüm tərəfdaş olduğu vurğulanıb. Enerji sahəsində mövcud əməkdaşlığın yaxşı perspektivlərinin olduğu bildirilib. Xəzər dənizini və Qara dənizi birləşdirən əməkdaşlığımızın inkişafı üçün böyük potensialın mövcudluğu qeyd edilib.

Dublində Prezident İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Endi Börnhem ilə görüşüb. Əvvəlcə "Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə" mübadilə olunub. .

Söhbət zamanı bu Bəyannamənin qəbul edilməsinin əlaqələrimizin rəsmi olaraq keyfiyyətcə yeni səviyyəyə qalxmasına xidmət etdiyi vurğulanıb. Hətta bu sənədin qəbulundan əvvəl də Azərbaycanla Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığı bir daha qeyd edilib.

Prezident İlham Əliyevin Dublində Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə görüşündə söhbət zamanı ölkələrimiz arasında siyasi əlaqələrin yaxşı səviyyədə olduğu vurğulanıb, iqtisadi-ticari, enerji və digər sahələrdə əməkdaşlığın inkişafı üçün daha böyük potensialın mövcudluğu qeyd edilib.

Azərbaycanın və Litvanın dövlət başçıları regional sülh gündəliyi, ikitərəfli münasibətlər və Azərbaycan-Avropa İttifaqı əlaqələrinin genişləndirilməsi barədə fikir mübadiləsi aparıblar.

Avropa İttifaqı Şurasının Prezidenti ilə görüş

Dublin sammiti çərçivəsində həmçinin Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta ilə görüşü olub.

Avropa İttifaqı Şurasının Prezidenti Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin inkişafından məmnunluğunu ifadə edib, ölkəmizə səfərini xatırlayıb. O, Azərbaycan-Avropa İttifaqı dialoqunun və əməkdaşlıq məsələlərinin müzakirəsini davam etdirmək üçün Prezident İlham Əliyevi Avropa İttifaqına səfərə dəvət edib.

Prezident İlham Əliyev ölkəmizin etibarlı tərəfdaş kimi Avropanın enerji təchizatı və enerji təhlükəsizliyində oynadığı rola toxunaraq vurğulayıb ki, Azərbaycan hazırda Avropa İttifaqının 10 üzv ölkəsinə qaz ixrac edir.

Ölkəmizlə Avropa İttifaqı arasında qaz təchizatı sahəsində uğurlu əməkdaşlığın davam etdirilməsi baxımından uzunmüddətli enerji müqavilələrinin və maliyyə mexanizmlərinin yenidən nəzərdən keçirilməsinin vacibliyi qeyd olunub.

Söhbət zamanı Azərbaycanla Avropa İttifaqı arasında enerji, o cümlədən bərpaolunan enerji sahəsində əməkdaşlığa toxunularaq, bu xüsusda Azərbaycan, Gürcüstan, Türkiyə və Bolqarıstan arasında bərpaolunan enerjinin Avropa bazarına ixracı üçün əldə olunmuş razılaşma vurğulanıb.

Avropa İttifaqı tərəfindən Naxçıvan dəmir yolu layihəsi üzrə qiymətləndirmənin tezliklə yekunlaşdırılacağı bildirilib.

Orta Dəhlizin əhəmiyyəti qeyd edilib, nəqliyyat və bağlantıların inkişafı məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Dəyirmi masada verilən mesajlar

Azərbaycan Prezidenti İlham Əliyev Dublində Avropa Siyasi Birliyinin 9-cu Zirvə Toplantısı çərçivəsində keçirilmiş "Rəqabətqabiliyyətli Avropanın yaradılması - innovasiya, bağlantılar və əlçatan enerji" ("Building a competitive Europe - innovation, connectivity and affordable energy") mövzusunda dəyirmi masada iştirak edib.

Tədbirdə çıxış edən Prezident İlham Əliyev gələcəkdə alternativ enerjinin rolunun daha da artacağını deyib. Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində ölkəmizin roluna toxunan dövlətimizin başçısı bu xüsusda Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində strateji tərəfdaşlığa dair 2022-ci ildə imzalanmış Anlaşma Memorandumunu qeyd edib. Bildirib ki, o vaxtdan bəri ölkəmiz Avropa İttifaqına qaz təchizatını səkkiz milyard kubmetrdən on üç milyard kubmetrə qədər artırıb. Dövlətimizin başçısı bunun Azərbaycanın ixracının demək olar ki, yarısını təşkil etdiyini deyib. Prezident İlham Əliyev qaz təchizatını artırmağı planlaşdırdığımızı bildirib, bu xüsusda yeni yataqların kəşf edildiyini vurğulayıb.

Dövlətimizin başçısı deyib ki, bu gün yeddi ölkənin ərazisindən keçən və Bolqarıstandakı interkonnektorlar vasitəsilə Avropa İttifaqının on ölkəsini təchiz edən, Bakıdan İtaliyaya qədər uzanan boru kəməri tamamilə doludur. Prezident İlham Əliyev onu genişləndirməyin vacibliyinə toxunub, Yunanıstana və İtaliyaya gedən kəmərin ötürmə gücünün 10 milyard kubmetrdən 11,2 milyard kubmetrə qədər artırdığımızı bildirib.

Prezident İlham Əliyev Azərbaycanın emal müəssisələrinin ümumi istehsal həcminin 30 milyon ton olduğunu diqqətə çatdırıb.

davamı 3-cü səhifədə

Dublin sammiti: Azərbaycanın Avropa siyasi dialoqunda artan rolu

Dialoq körpüsü - Dublindən Bakıya

əvvəli 2-ci səhifədə

Azərbaycanın regional və qlobal miqyasda artan rolu həmçinin ölkəmizin xoş niyyətdən çıxış etməklə nüfuzlu beynəlxalq təşkilatların ayrı-ayrı mühüm tədbirlərinə məmnuniyyətlə ev sahibliyi etməsi ilə şərtlənir. Son vaxtlarda respublikamız dünyada dialoq məkanı kimi çıxış edir və qlobal əhəmiyyətli məsələlərin müzakirələri məhz ölkəmizdə aparılır. Paytaxtımızda böyük uğurla baş tutan COP29-un unudulmaz irsi hazırda qlobal iqlim gündəliyinin əsasını təşkil edir. Cari ilin may ayında Bakının ev sahibliyi ilə keçirilən Ümumdünya Şəhərsalma Forumunda iştirakçılar Azərbaycanın müasir şəhərsalma təcrübəsi ilə tanış oldular. Respublikamız xüsusilə də işğal zamanı tamamilə dağıdılmış ərazilərin bərpasında böyük uğurlar qazanıb. Bu, dünya üçün də bir nümunədir.

Bu yaxınlarda - 2026-cı il oktyabrın 15-də Bakı daha bir mötəbər tədbirə - Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) 7-ci Zirvə toplantısına ev sahibliyi edib. Sammitdə üzv dövlətlərin dəstəyi ilə Azərbaycanın təşkilata sədrliyinin 2028-ci ilədək uzadılması ölkəmizin Asiya məkanında dialoq və etimad quruculuğuna verdiyi töhfənin göstəricisidir. Bu sədrliyin əhəmiyyəti yalnız siyasi təmsilçiliklə məhdudlaşmır. Nəqliyyat bağlantıları, rəqəmsallaşma, iqtisadi əməkdaşlıq, təhlükəsizlik və davamlı inkişaf kimi istiqamətlər Azərbaycanın Asiya dövlətləri ilə əlaqələrinin genişləndirilməsi üçün əlavə imkanlar yaradır.



İslam dünyası ilə münasibətlərdə də qarşıdakı dövr mühüm hadisələrlə əlamətdar olacaq. Belə ki, 2027-ci ildə Bakıda İslam Əməkdaşlıq Təşkilatının 16-cı Zirvə toplantısının keçirilməsi və Azərbaycanın təşkilata sədrliyi ölkəmizə üzv dövlətlər arasında siyasi koordinasiyanın, iqtisadi və humanitar əməkdaşlığın inkişafına töhfə vermək imkanı yaradacaq. Bu, Azərbaycanın İslam dünyasındakı mövqeyinin və beynəlxalq təşəbbüslərdə iştirakının daha da genişlənməsi baxımından əhəmiyyətlidir.

Artıq Azərbaycanla Mərkəzi Asiya regionu vahid siyasi və iqtisadi məkan kimi çıxış edir. 2025-ci il noyabrın 16-da Daşkənddə keçirilən Mərkəzi Asiya dövlət başçılarının yeddinci Məşvərət Görüşündə Azərbaycanın platformaya tamhüquqlu iştirakçı statusunda qoşulması barədə qərar qəbul edilib. 2026-cı il oktyabrın 8-də Türkmənbaşıda keçirilən səkkizinci görüşdə isə ölkəmizin 2027-ci ildə platformaya ilk dəfə sədrlik edəcəyi açıqlanıb. Bu qərarlar Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında siyasi, iqtisadi və nəqliyyat-logistika əməkdaşlığının genişləndirilməsi üçün yeni imkanlar yaradır.

Eyni zamanda, Azərbaycan 2028-ci ildə Avropa Siyasi Birliyinin 12-ci Zirvə toplantısına ev sahibliyi edəcək. ASB-nin Zirvə toplantısının Bakıda keçirilməsinin razılaşdırılması ölkəmizin Avropa siyasi dialoqunda artan iştirakının mühüm göstəricisidir.

Mübariz ABDULLAYEV

Növbəti strateji tərəfdaşlıq...

Azərbaycan ilə Böyük Britaniya arasında münasibətlər yeni mərhələyə qədəm qoyur

I yazı

Azərbaycanın xarici siyasət strategiyasında ikitərəfli əlaqələrin inkişafı və müxtəlif dövlətlərlə strateji tərəfdaşlıq münasibətlərinin qurulması mühüm istiqamətlərdən birini təşkil edir. Bu siyasət Azərbaycanın beynəlxalq münasibətlər sistemində artan nüfuzunun, siyasi çəkisinin və etibarlı tərəfdaş kimi mövqeyinin göstəricisidir. Bu gün Azərbaycanla əməkdaşlığa maraq göstərən dövlətlərin dairəsinin genişlənməsi təsadüfi deyil. Ölkəmizin beynəlxalq öhdəliklərə sadiqliyi, müstəqil və prinsipial xarici siyasət yürütməsi, regional və qlobal məsələlərdə məsuliyyətli mövqe nümayiş etdirməsi tərəfdaşların Azərbaycana etimadını daha da artırır. Strateji tərəfdaşlıq sənədləri ilə möhkəmlənən münasibətlər isə siyasi dialoqdan iqtisadiyyat, enerji, müdafiə, təhlükəsizlik və humanitar sahələrədək geniş əməkdaşlıq imkanları yaradır. Bu baxımdan, Azərbaycanın ikitərəfli əlaqələrə verdiyi önəm həm milli maraqların təmin olunmasına, həm də beynəlxalq əməkdaşlıq mühitində etibarlı və sözünə sadiq dövlət kimi mövqeyinin möhkəmlənməsinə xidmət edir.

Qeyd edək ki, Azərbaycan müxtəlif dövlətlərlə strateji tərəfdaşlıq və müttəfiqlik səviyyəsində ikitərəfli münasibətlərə malikdir:

- Türkiyə, Rusiya, Özbəkistan və Qırğızıstan Azərbaycanın rəsmi müttəfiqləri hesab olunur.

- İtaliya, Çin, Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) və Avropa İttifaqına üzv olan bir sıra ölkələrlə (ümumi olaraq Aİ-yə üzv 10-a yaxın ölkə ilə) strateji tərəfdaşlıq sənədləri mövcuddur.

Azərbaycanın müxtəlif dərəcələrdə (strateji tərəfdaşlıq, hərtərəfli strateji tərəfdaşlıq və ya müttəfiqlik) münasibətlər qurduğu ölkələrin ümumi sayı rəsmi olaraq 20-dən çox dövləti əhatə edir. Noyabrın 12-də Azərbaycan ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında imzalanan Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə bu siyahıda növbəti oldu.



Davamlı və dostluğa söykənən münasibətlər...

Qeyd edək ki, iki ölkə arasında münasibətlər uzunmüddətli siyasi dialoqa əsaslanır. 1994-cü il fevralın 23-də imzalanan Dostluq və Əməkdaşlıq haqqında Birgə Bəyannamə və 1998-ci il iyulun 21-də imzalanan Dostluq Münasibətləri və Tərəfdaşlıq haqqında Birgə Bəyannamə ikitərəfli əlaqələrin gücünü, dərinliyini və dinamizmini yüksək səviyyəyə çatdırıb. Hər iki ölkə ikitərəfli yüksəksəviyyəli siyasi dialoqa hər zaman böyük hörmətlə yanaşıblar - xüsusən də beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, eləcə də suverenliyə, müstəqilliyə və ərazi bütövlüyünə hörmətlə bağlı prinsiplərə sadiqliklik hər zaman vurğulanıb. Dövlətlər arasında iqtisadi münasibətlər də yüksək səviyyədədir. Bu Bəyannamədə də tərəflər güclü, dayanıqlı və şaxələndirilmiş iqtisadi artımın, açıq ticarətin, investisiyaların və innovasiyanın hər iki ölkə üçün uzunmüddətli sabitlik və rifahın vacib təməlləri olduğunu vurğulayıblar. Hər iki ölkə davamlı tərəfdaşlıqların etimad, açıqlıq və güclü insanlararası əlaqələr üzərində qurulduğunu tanıyaraq, uzunmüddətli artım və rəqəmsal transformasiya üçün təməl kimi təhsil, elm, innovasiya və bacarıqlar sahəsində praktik əməkdaşlığın vacibliyini təsdiqləyiblər.

Müdafiə potensialının gücləndirilməsi və hərbi əməkdaşlıq imkanları

Bəyannamənin müdafiə əməkdaşlığına həsr olunan müddəaları Azərbaycan-Böyük Britaniya münasibətlərinin praktik və institusional əsaslarının genişləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Sənəddə tərəflərin "təlim, potensialın artırılması və qarşılıqlı fəaliyyətə yönəlmiş müdafiə əməkdaşlığını inkişaf etdirəcəkləri" bəyan olunur. Bu müddəa hərbi sahədə bilik və təcrübə mübadiləsinin, peşəkar hazırlığın və müdafiə imkanlarının inkişafının ikitərəfli əməkdaşlığın prioritet istiqamətlərindən biri olacağını göstərir.

Azərbaycanın son illərdə müdafiə və təhlükəsizlik sahəsində həyata keçirdiyi genişmiqyaslı islahatlar, ordunun modernləşdirilməsi, müasir hərbi texnologiyaların tətbiqi və peşəkar hərbi kadr hazırlığı ölkənin müdafiə potensialını əhəmiyyətli dərəcədə gücləndirib. 44 günlük Vətən müharibəsində qazanılmış tarixi Zəfər müasir hərbi strategiyanın, texnoloji imkanların və koordinasiyalı fəaliyyətin əhəmiyyətini bir daha nümayiş etdirdi. Bu baxımdan Böyük Britaniya ilə təlim və təcrübə mübadiləsi istiqamətində əməkdaşlıq Azərbaycanın müdafiə imkanlarının daha da təkmilləşdirilməsi üçün əlavə perspektivlər yaradır.

Diqqətçəkən digər məqam müdafiə sənayesi sahəsində əməkdaşlıq imkanlarının araşdırılmasıdır. Bəyannamədə "müdafiə sənayesi əməkdaşlığını gücləndirmək imkanlarını araşdıracaqlar" ifadəsi tərəflərin bu istiqamətdə qarşılıqlı maraqlarının olduğunu ortaya qoyur. Bu, gələcəkdə texnoloji təcrübə mübadiləsi, müdafiə sənayesi məhsullarının istehsalı və birgə təşəbbüslər üçün zəmin yarada bilər. Eyni zamanda, yüksək səviyyəli siyasi dialoqun davam etdirilməsi müdafiə sahəsində əməkdaşlığın ardıcıl inkişafına imkan verir. Bütün bunlar Azərbaycanın milli təhlükəsizlik maraqlarının təmin olunması ilə yanaşı, Böyük Britaniya ilə strateji tərəfdaşlığın yeni məzmun qazanmasına xidmət edir.



Təhlükəsizlik sahəsində strateji tərəfdaşlığın yeni mərhələsi

Vurğulandığı kimi, Azərbaycan ilə Böyük Britaniya arasında münasibətlər uzun illər ərzində siyasi dialoq, iqtisadi əməkdaşlıq və enerji təhlükəsizliyi istiqamətində inkişaf edib. Strateji Tərəfdaşlıq haqqında Bəyannamədə müdafiə və təhlükəsizlik məsələlərinin ayrıca istiqamət kimi müəyyənləşdirilməsi isə ikitərəfli əlaqələrin daha geniş geosiyasi məzmun qazandığını göstərir. Sənəddə tərəflərin regional sülh və sabitliyin təmin olunması naminə "müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın gücləndirilməsi" barədə ortaq mövqeyi ifadə olunur. Bu yanaşma Azərbaycanın xarici siyasətində təhlükəsizlik amilinə verdiyi əhəmiyyətlə uzlaşır.

Bəlli olduğu kimi, müasir beynəlxalq münasibətlər sistemində təhlükəsizlik artıq yalnız dövlətlərin sərhədlərinin qorunması ilə məhdudlaşmır. Regional münaqişələr, terrorizm, transmilli təhdidlər, kiberhücumlar və yeni hərbi çağırışlar dövlətlərdən daha çevik və koordinasiyalı fəaliyyət tələb edir. Azərbaycan Cənubi Qafqazda yaratdığı yeni geosiyasi reallıqlar fonunda regional təhlükəsizliyin təmin olunmasında mühüm aktor kimi çıxış edir. Böyük Britaniya ilə bu istiqamətdə əməkdaşlığın genişləndirilməsi Azərbaycanın beynəlxalq təhlükəsizlik arxitekturasında mövqeyinin möhkəmlənməsinə xidmət edir.

Xüsusilə sənəddə "ümumi təhdidləri yayındırmaq, qarşısını almaq və onlara cavab vermək qabiliyyətlərini artırmaq" məqsədinin vurğulanması tərəfdaşlığın yalnız mövcud problemlərə reaksiya verməklə kifayətlənmədiyini göstərir. Burada əsas məqsəd potensial riskləri əvvəlcədən müəyyənləşdirmək, onların qarşısını almaq və təhlükəsizlik sahəsində institusional hazırlığı gücləndirməkdir. Beləliklə, Bakı-London münasibətləri ənənəvi siyasi və iqtisadi əməkdaşlıq çərçivəsindən çıxaraq regional sabitliyə töhfə verən daha geniş strateji müstəviyə yüksəlir.

Hüquq-mühafizə, institusional dayanıqlılıq və beynəlxalq təhlükəsizlik

Strateji Tərəfdaşlıq haqqında Bəyannamənin mühüm cəhətlərindən biri təhlükəsizlik anlayışına kompleks yanaşmanın nümayiş etdirilməsidir. Sənəddə əməkdaşlıq yalnız hərbi müdafiə və silahlı qüvvələrin imkanları ilə məhdudlaşdırılmır, hüquq-mühafizə orqanları, sərhəd idarəçiliyi, məhkəmə və hüquqi sistemlər də ümumi təhlükəsizlik arxitekturasının tərkib hissəsi kimi nəzərdən keçirilir. Tərəflərin "qanunun aliliyini və institusional dayanıqlılığı gücləndirmək" məqsədilə əməkdaşlığı genişləndirmək niyyəti dövlət idarəçiliyinin və təhlükəsizlik institutlarının möhkəmləndirilməsi baxımından əhəmiyyətlidir.

Hər zaman bildirilir ki, qloballaşan dünyada transmilli cinayətkarlıq, qanunsuz miqrasiya, insan alveri, narkotik vasitələrin dövriyyəsi və digər sərhədlərarası təhdidlər ayrı-ayrı dövlətlərin səyləri ilə tam aradan qaldırıla bilməz. Bu problemlərin qarşısının alınması operativ informasiya mübadiləsini, hüquq-mühafizə qurumları arasında əlaqələndirilmiş fəaliyyəti və sərhəd təhlükəsizliyinin gücləndirilməsini zəruri edir. Məhz bu baxımdan Bəyannamədə sərhəd idarəçiliyi ilə yanaşı, "məhkəmə və hüquqi əməkdaşlığı formalaşdıracaqlar" müddəasının yer alması tərəfdaşlığın geniş institusional çərçivəsini müəyyənləşdirir.

Sənədin digər mühüm istiqaməti çoxtərəfli platformalarda əməkdaşlıqla bağlıdır. Tərəflər "beynəlxalq sülhə və təhlükəsizliyə birgə töhfə verərək əməkdaşlıq etmək" niyyətlərini təsdiqləyirlər. Bu yanaşma Azərbaycanın beynəlxalq təşkilatlarda fəal iştirakına, regional və qlobal təhlükəsizlik məsələlərində konstruktiv mövqe nümayiş etdirməsinə uyğun gəlir. BMT və digər çoxtərəfli platformalarda təhlükəsizlik, sabitlik və beynəlxalq hüququn prinsiplərinin müdafiəsi hər iki ölkənin qarşılıqlı maraqlarının uzlaşdığı istiqamətlərdə əməkdaşlıq imkanlarını artırır. Nəticə etibarilə, Bakı ilə London arasında təhlükəsizlik tərəfdaşlığı yalnız ikitərəfli münasibətlərin möhkəmləndirilməsinə deyil, daha geniş coğrafiyada sabitliyin və beynəlxalq təhlükəsizliyin təşviqinə yönəlmiş strateji əməkdaşlıq modelinin formalaşmasına xidmət edir.

Pərviz SADAYOĞLU

Sadiq və etibarlı enerji təchizatçısı

Azərbaycan Avropa İttifaqı ölkələrinə qaz nəqlinin coğrafiyasını genişləndirir



Prezident İlham Əliyev "Avropa Siyasi Birliyi"nin 9-cu Zirvə Toplantısı çərçivəsində keçirilən "Rəqabətqabiliyyətli Avropanın yaradılması - innovasiya, bağlantılar və əlçatan enerji" mövzusunda dəyirmi masada çıxışı zamanı Azərbaycanın dünya ölkələrinin enerji təhlükəsizliyində oynadığı müstəsna rola toxunub. Cənub Qaz Dəhlizinin və onun mühüm tərkib hissəsi olan Trans-Adriatik Boru Kəmərinin (TAP) Avropanın enerji təhlükəsizliyindəki roluna xüsusi diqqət yetirib. Bildirib ki, hazırda Azərbaycanın qaz nəql etdiyi ölkələrin sayı 16-ya bərabərdir, onların əksəriyyəti Avropa İttifaqına üzv olan ölkələrdir. Bu gün yeddi ölkənin ərazisindən keçən və Bolqarıstandakı interkonnektorlar vasitəsilə Avropa İttifaqının 10 ölkəsini təchiz edən və Bakıdan İtaliyaya qədər uzanan boru kəməri tamamilə doludur. Kəmərin genişləndirilməsi nəticəsində Yunanıstana və İtaliyaya gedən kəmərin ötürmə gücünün 10 milyard kubmetrdən 11,2 milyard kubmetrə qədər artacaq.

Pan-Avropa enerji təchizatçısı

Yüksək etimad və sadiq tərəfdaşlığın nəticəsidir ki, Avropa Komissiyası Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa enerji təchizatçısı kimi tanıyır. Respublikamızdan nəql olunan neft və qaz bir çox ölkələrin enerji təhlükəsizliyində və möhkəmləndirilməsində böyük dəyişiklik yaradır. Hazırda boru kəmərləri vasitəsilə qaz ixracının coğrafi əhatəsinə görə, Azərbaycan dünyada birinci yerdədir. Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində əsaslı hüquqi çərçivə olan 2022-ci ildə imzalanmış Anlaşma Memorandumunun tələblərinə uyğun olaraq emal infrastrukturlarının genişləndirilməsi və qaz təchizatının artırılması planlaşdırılır. Ölkəmiz yeni həcmlərin əldə edilməsi üçün yeni yataqların kəşf edilməsi istiqamətində geoloji kəşfiyyat işlərini də davam etdirir.

Mövcud proqnozlara görə, 2026-2028-ci illərdə ölkəmizin Avropa regionuna ixracı 15-16 milyard kubmetrə çatacaq. Növbəti illərdə ixracın artırılması üçün digər mənbələr də səfərbər olunacaq. Bu məsələ bir neçə gün əvvəl Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin ölkəmizə səfəri zamanı da əsas müzakirə mövzularından biri kimi diqqətə çatdırılıb.

Tərəflər arasında sadiqlik və həmrəylik amili nəzərə alınmaqla, uzunmüddətli vacib enerji platforması qurulacaq. Cənab Antonio Koştanın da etiraf etdiyi kimi Azərbaycanın Avropa ölkələrinin enerji təchizatının şaxələndirilməsində rolu nəzərə alınaraq bu istiqamətdə mövcud imkan resurslarının daha da diversifikasiyası nəzərdə tutulur. Mövcud möhkəm hüquqi çərçivə sənədinə əsasən, Cənub Qaz Dəhlizinin nəql infrastrukturlarının artırılması da bu ssenariyə daxildir.

Azərbaycanın hasilatı və ixracı artırmaq üçün kifayət qədər potensialı mövcuddur. Hazırda qaz tədarükündə əsas mənbə olan "Şahdəniz -2" layihəsi üzrə hasilat hər il artır və təkcə bu mənbədən illik 16-17 milyard kubmetr qaz istehsal olunur. "Şahdəniz"in əlavə ehtiyatlarından başqa, "Azəri-Çıraq-Günəşli" (ACG) blokundan hasilatın həcmi yüksəlir. Cəmi bir neçə ay əvvəl AÇG-nin dərin qaz yatağından - "ACG Deep Gas" adlandırılan layihə çərçivəsində hasilata başlanılıb. Eyni zamanda, təsdiq edilmiş iş proqramı və investisiya portfeli əsasında mövcud yataqlarda da hasilatın artırılması və layihələndirilməsi, həmçinin TRIPP marşrutu boyunca tranzit əlaqələrinin perspektivləri müzakirə olunub. Yüklərin Azərbaycan ərazisindən keçməklə Ermənistana və Ermənistandan tranziti müsbət hal kimi qeyd olunub. Ötən ilin noyabr ayından etibarən Azərbaycan ərazisindən Ermənistana ümumilikdə 105 min ton yük daşınıb. Tərəflər, həmçinin Azərbaycan ilə Ermənistan arasında iqtisadi və ticari əlaqələrin daha da inkişaf etdirilməsi imkanları, o cümlədən gələcəkdə elektrik şəbəkələrinin birləşdirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparıblar. Liderlər ətraf mühit və transsərhəd su əməkdaşlığının əhəmiyyətini vurğulayıb, transsərhəd çayların idarə olunması üzrə işçi qrupların yaradılmasını alqışlayıblar. Liderlər sülh prosesində müsbət dinamikanın qorunub saxlanılmasının, regionda sülhün, sabitliyin və rifahın möhkəmləndirilməsinə yönəlmiş dialoqun davam etdirilməsinin vacibliyini bir daha təsdiqləyiblər.

Cənub Qaz Dəhlizinin genişləndirilməsinə yeni sərmayələr cəlb olunacaq

tırılması istiqamətində ardıcıl işlər görülməkdədir. "Abşeron" və "Ümid" yataqlar blokundakı dərin qaz ehtiyatları, olduqca perspektivli "Şəfəq-Asiman", "Babək", "Zəfər-Məşəl" və başqa strukturlar da ölkəmizin potensialının artmasında mühüm rol oynamaqdadır. Əsas perspektivli yataqlardan biri olan "Abşeron" yatağında da hasilatın həcmində əhəmiyyətli artımlar müşahidə edilməkdədir. 2025-ci ildə bu yataqdan 2 milyard kubmetrdən çox qaz hasil edilib ki, bu, əvvəlki illə nisbətdə 2 dəfəyə yaxın artım deməkdir. Yataqda 350-360 milyard kubmetr qaz ehtiyatları ehtimal edilir. Digər qiymətləndirmələr bu yatağın ehtiyatlarının 400 milyard kubmetrdən də çox olduğunu deməyə əsas verir. Bu isə təkcə, "Abşeron"un Aİ-yə ən azı 20-25 qaz nəqlində perspektiv mənbə olacağını təsdiqləyir.

Hasilat həcmlərinin artırılması Azərbaycanın qaz istehsalı nəqlinin böyüməsi fonunda Cənub Qaz Dəhlizinin ixrac infrastrukturunun da genişləndirilməsi də labüdləşir. Bu ehtiyaclar fonunda TAP kəmərinin ötürücülük potensialının genişləndirilməsi istiqamətində davamlı addımlar atılır. Dövlət başçısı bu məsələyə münasibət bildirərkən xatırlatdı ki, həm hasilat həcmlərinin artması, həm də bölgədə baş verən geosiyasi proseslər, xüsusilə də, Rusiya-Ukrayna müharibəsi mövcud qaz nəqli infrastrukturunun genişləndirilməsini zəruri edir

Nəticədə, hasilat həcmlərinin artırılması Azərbaycanın qaz istehsalı nəqlinin böyüməsi fonunda Cənub Qaz Dəhlizinin ixrac infrastrukturunun da genişləndirilməsi də labüdləşir. Bu ehtiyaclar fonunda TAP kəmərinin ötürücülük potensialının genişləndirilməsi istiqamətində davamlı addımlar atılır. Dövlət başçısı bu məsələyə münasibət bildirərkən xatırlatdı ki, həm hasilat həcmlərinin artması, həm də bölgədə baş verən geosiyasi proseslər, xüsusilə də, Rusiya-Ukrayna müharibəsi mövcud qaz nəqli infrastrukturunun genişləndirilməsini zəruri edir. Bu baxımdan əsas sual ondan ibarətdir ki, boru kəmərlərinin ötürmə qabiliyyətinin artırılması üçün zəruri maliyyə vəsaiti tələb olunur ki, həmin sərmayələrin cəlb edilməsi Aİ ölkələri və maliyyə təşkilatları ilə müzakirə olunmaqdadır.

Beləliklə, "Rəqabətqabiliyyətli Avropanın yaradılması - innovasiya, bağlantılar və əlçatan enerji" mövzusunda dəyirmi masada səsləndirilən fikirlər bir daha qlobal enerji bazarında, o cümlədən Avropa regionunda Azərbaycanın etibarlı, sadiq geoiqtisadi reallıqlar fonunda alternativ və dayanıqlı mənbə olduğunu təsdiqləyir. Bu isə Azərbaycanın Aİ ölkələri üçün xüsusi əhəmiyyət kəsb etdiyini və əməkdaşlıq və etimad mühitinin daha da möhkəmləndirir.

E.CƏFƏRLİ

Sülh danışıqlarının Dublin mərhələsi...

Dialoqun davam etdirilməsinin vacibliyi bir daha təsdiqləndi



2020-ci il Vətən müharibəsi bütövlükdə Cənubi Qafqazın geosiyasi mənzərəsini dəyişdi. Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. Bununla da regionda uzun illər davam edən münaqişə mərhələsi arxada qaldı və yeni inkişaf dövrünün təməli qoyuldu. Müharibədən sonrakı mərhələdə formalaşan reallıqlar təkcə Azərbaycan üçün deyil, bütün region ölkələri üçün yeni imkanlar yaradıb. Ən vacib məqamlardan biri isə ondan ibarətdir ki, Bakı əldə etdiyi hərbi-siyasi üstünlüyü revanşizm və qarşıdurma siyasətinə deyil, əməkdaşlıq və qarşılıqlı faydalı münasibətlər sisteminin qurulmasına yönəldib. Yeni dövrdə sülh prosesinin daha da inkişaf etdirilməsi İrəvan üçün də bölgənin yeni konfiqurasiyasında əsaslı rol vəd edir. Yaranan fürsətdən istifadə edə bilsə, İrəvan gələcəkdə müstəqil siyasi

Dublində növbəti görüş

Noyabrın 12-də İrlandiyanın Dublin şəhərində keçirilən "Avropa Siyasi Birliyi"nin 9-cu Zirvə Toplantısı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanın Baş naziri Nikol Paşinyan ilə görüşüb. Görüşdə 2025-ci il avqustun 8-də keçirilmiş Vaşinqton Sülh Sammitinin nəticələrinə və həmin tədbirdə imzalanmış Vaşinqton Birgə Bəyannaməsinə əsaslanaraq, Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəlilədilməsi ətrafında fikir mübadiləsi, iki ölkə arasında sülhün daha da möhkəmləndirilməsinə yönəlmiş praktiki addımlara, o cümlədən nəqliyyat və tranzit əlaqələrinin inkişafına, iqtisadi-ticari münasibətlərə, sərhədlərin delimitasiyasına və etimad quruculuğu tədbirlərinin həyata keçirilməsinə dair müzakirələr aparılıb. Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutunun (TRIPP) inkişafı istiqamətində əldə olunmuş irəliləyişlər, o cümlədən onun dəmir yolu və avtomobil yolu komponentlərinin planlaşdırılması və layihələndirilməsi, həmçinin TRIPP marşrutu boyunca tranzit əlaqələrinin perspektivləri müzakirə olunub. Yüklərin Azərbaycan ərazisindən keçməklə Ermənistana və Ermənistandan tranziti müsbət hal kimi qeyd olunub. Ötən ilin noyabr ayından etibarən Azərbaycan ərazisindən Ermənistana ümumilikdə 105 min ton yük daşınıb. Tərəflər, həmçinin Azərbaycan ilə Ermənistan arasında iqtisadi və ticari əlaqələrin daha da inkişaf etdirilməsi imkanları, o cümlədən gələcəkdə elektrik şəbəkələrinin birləşdirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparıblar. Liderlər ətraf mühit və transsərhəd su əməkdaşlığının əhəmiyyətini vurğulayıb, transsərhəd çayların idarə olunması üzrə işçi qrupların yaradılmasını alqışlayıblar. Liderlər sülh prosesində müsbət dinamikanın qorunub saxlanılmasının, regionda sülhün, sabitliyin və rifahın möhkəmləndirilməsinə yönəlmiş dialoqun davam etdirilməsinin vacibliyini bir daha təsdiqləyiblər.

Yükdaşımalar 105 min tona çatıb...

Qeyd olunduğu kimi, Azərbaycanın apardığı siyasət revanşizmə deyil, regionun davamlı inkişafına hesablanıb. Post-müharibə dövründə Bakı yalnız bəyanatlarla kifayətlənməyərək, konkret addımlar atmaqla yeni yanaşmasını praktik müstəvidə nümayiş etdirdi. İlk növbədə sülh şəraitinin yaradılması istiqamətində görülən işlər diqqət çəkir. Azərbaycan hərbi qələbədən sonra bölgədə gərginliyi artıracaq addımlardan imtina edərək, diplomatik kanalları ön plana çıxardı.

Eyni zamanda Ermənistana neft məhsullarının ixracı, Ermənistan üçün ərazimizdən keçərək yük daşınmasına icazə verilməsi və yükdaşımaların 105 min tona çatması mühüm siyasi mesaj daşıyır. Bu addım göstərdi ki, Azərbaycan regionda iqtisadi blokadalarla deyil, qarşılıqlı əlaqələr və fayda prinsipi ilə hərəkət etməyə hazırdır. Neft və enerji məhsullarının ixracı məsələsində də Bakının konstruktiv mövqeyi özünü göstərdi. Enerji təhlükəsizliyi məsələsində Azərbaycan yalnız öz maraqlarını deyil, regionun ümumi rifahını nəzərə alan aktor kimi çıxış etdi. Bütün bu addımların ünvanı aydındır - Ermənistan yaranmış tarixi fürsətdən maksimum yararlanmalıdır. Bakı açıq mesaj verir: sülh qarşı tərəf üçün risk deyil, inkişaf şansıdır. Əgər İrəvan bu çağırışlara cavab verməzsə, regional layihələrdən kənarda qalmaqla siyasi və iqtisadi baxımdan uduzan tərəf olacaq. Azərbaycanın postmüharibə yanaşması artıq faktiki olaraq yeni regional davranış modelinə çevrilib və bu model beynəlxalq aləmdə də maraqla qarşılanır.

Zəngəzur dəhlizi (TRIPP) Ermənistan üçün mühüm perspektiv vəd edir

Azərbaycanın Cənubi Qafqaz üçün formalaşdırdığı ən mühüm yeni mərhələ isə Zəngəzur dəhlizinin (TRIPP) reallaşmasıdır. Yeni iqtisadi nizamda Şərq-Qərb tranzitini birləşdirəcək dəhliz digər region ölkələri üçün, xüsusilə İrəvan üçün mühüm əhəmiyyət kəsb edir. Zəngəzur dəhlizi (TRIPP) ümumən regionun inkişaf dinamikasını artırma imkanına malikdir. Dəhliz Şərq-Qərb marşurutu üzərində ən qısa yoldur. Təbii ki, istər yükdaşımalarında, istərsə də digər ticarət mübadilələrində ən qısa yolun seçilməsi iqtisadi baxımdan da böyük mənfəət vəd edir. Eyni zamanda, Zəngəzur dəhlizi təhlükəsiz marşurut sayılır. İnfrastruktur baxımından da Zəngəzur dəhilizi olduqca əlverişlidir. Zəngəzur dəhlizinin (TRİPP) ən mühüm üstünlüklərindən biri isə Avropa ilə Asiyanı birləşdirməklə yanaşı, Yaxın Şərq regionuna da yaxınlığıdır. Türkiyə vasitəsilə təkcə Avropaya deyil, eləcə də Yaxın Şərqə çıxış imkanı qazanacaq layihə tərəfdaşları bu üstünlükdən də yararlanmış olacaqlar.

Vurğulandığı kimi, Ermənistan bu dəhlizin açılması ilə yeni inkişaf mərhələsinə qədəm qoyacaq. Qeyd edək ki, Zəngəzur dəhlizinin açılması Ermənistan üçün həm siyasi, həm də iqtisadi dividendlər vəd edir. Belə ki, Zəngəzur dəhlizi Ermənistanın regional ticarət yollarına çıxışını bərpa etməyə və daha böyük iqtisadi məkana inteqrasiya etməyə imkan verəcək. Eyni zamanda, Ermənistanda xarici sərmayə artacaq - açıq sərhədlər və sülh mühiti Ermənistan iqtisadiyyatına inamı artıracaq. İqtisadi dalan mühiti aradan qalxacaq - Ermənistan üçün həm istehsal xərcləri azalacaq, həm də ixrac imkanları genişlənəcək.


Sülh üçün...


Müharibədən sonra yaranmış yeni reallıqlar region üçün böyük imkanlar açsa da, bu imkanların tam şəkildə reallaşdırılması yalnız sülh müqaviləsinin imzalanması ilə mümkündür. Sülh olmadan iqtisadi potensialın tam istifadəsi, investisiyaların cəlb olunması və regional inteqrasiyanın dərinləşdirilməsi çətinləşir. Ermənistanın Azərbaycanla yekun sülh sazişi imzalaması təkcə iki ölkə arasında münasibətlərin normallaşması deyil, həm də bütün Cənubi Qafqazın gələcəyi üçün mühüm addım olacaq. Bu addım regionun uzun illər istifadəsiz qalmış iqtisadi potensialını üzə çıxara bilər. Azərbaycanın uzunmüddətli və ardıcıl xarici siyasət kursu nəticəsində formalaşmış beynəlxalq tərəfdaşlıq şəbəkəsi region dövlətləri üçün yeni imkanlar yaradır. Ermənistan da bu prosesə qoşulmaqla iqtisadi və siyasi baxımdan yeni inkişaf mərhələsinə qədəm qoya bilər. Lakin bunun üçün ilk növbədə siyasi iradə nümayiş etdirilməlidir. Regionda yeni dövrün tələblərinə uyğun davranmaq, keçmişin qarşıdurma siyasətindən imtina etmək və beynəlxalq hüququn prinsiplərinə hörmət göstərmək vacibdir. Qarşılıqlı suverenliyin və ərazi bütövlüyünün tanınması, münasibətlərin normallaşdırılması və hüquqi əsasların formalaşdırılması sülh prosesinin uğurunu müəyyən edən əsas amillərdir. Bunun üçün isə Ermənistan mütləq şəkildə konstitusiyasanda yer alan Azərbaycana qarşı əsassız iddialardan geri çəkilməlidir. Məhz bu halda Cənubi Qafqaz sabitlik, rifah və inkişaf məkanına çevrilə bilər.

P.İSMAYILOV

YAP Sədrinin müavini ilə Çinin Azərbaycandakı səfiri arasında görüş keçirilib







Noyabrın 13-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Lu Mey arasında görüş keçirilib.

Səfir Lu Mey ÇKP Mərkəzi Komitəsinin üzvü, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, nazir Lyu Haysinin salamlarını və ölkəmizin ictimai-siyasi həyatında əlamətdar hadisə olan Yeni Azərbaycan Partiyasının VIII Qurultayının uğurla baş tutması münasibətilə təbriklərini çatdırıb.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov salamlara və təbriklərə görə təşəkkürünü bildirib, onun da salamlarının Lyu Haysinə çatdırılmasını xahiş edib.

Görüşdə müasir beynəlxalq münasibətlər sisteminin mühüm reallığı olan Azərbaycan-Çin münasibətlərinin tarixi ənənələrə, qarşılıqlı etimada və möhkəm dostluğa əsaslandığı qeyd olunub.

Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının (ÇKP) Baş katibi Si Cinpinin məqsədyönlü siyasəti nəticəsində hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş dövlətlərarası əlaqələrin bütün sahələrdə yüksələn xətt üzrə inkişafının məmnunluq doğurduğu vurğulanıb.

Beynəlxalq hüquq normalarına əsaslanan müstəqil siyasət həyata keçirən hər iki ölkənin bir-birinin müstəqilliyinə, ərazi bütövlüyünə və suverenliyinə qətiyyətli dəstəyi bir daha ifadə edilib.

İqtisadi-ticari, nəqliyyat-logistika, təhsil, turizm, mədəni, humanitar, rəqəmsal texnologiyalar, "yaşıl enerji", gənclərlə iş və digər sahələrdə işbirliyinin dərinləşdirilməsinin önəmi vurğulanıb. Tərəflər arasında konstruktiv siyasi dialoqun Qlobal Cənubda əməkdaşlığın təşviqinə mühüm töhfələr verdiyi bildirilib.

Hər iki ölkənin liderlərinin dövlətlərarası münasibətlərin mühüm tərkib hissəsi kimi Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında həm ikitərəfli, həm də müxtəlif beynəlxalq platformalar çərçivəsində əlaqələrin inkişafını xüsusi diqqət mərkəzində saxladıqları qeyd olunaraq partiyalar arasında Əməkdaşlıq memorandumundan irəli gələn vəzifələrin yerinə yetirilməsinin müştərək maraqların təminində xidmət etdiyi bildirilib.

2026-cı il 11-15 may tarixində YAP nümayəndələrinin Çinə, sentyabrın 8-də isə ÇKP Mərkəzi Komitəsinin üzvü, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, nazir Lyu Haysinin rəhbərlik etdiyi heyətin Azərbaycana səfərləri məmnunluqla xatırlanaraq qarşılıqlı fikir və təcrübə mübadiləsinin partiyalar arasında əlaqələrin mövcud vəziyyətinin dəyərləndirilməsi və gələcək əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi baxımından əhəmiyyəti qeyd olunub.

Gənclərin ictimai-siyasi həyatda, eləcə də dövlət idarəçiliyində və partiya fəaliyyətində aktiv iştirakının önəminə toxunularaq bu sahədə ixtisaslaşmış təhsil müəssisələri arasında işbirliyinin önəmi vurğulanıb.

Səfir Lu Mey 2026-cı ilin oktyabr ayında Pekində keçirilmiş ÇKP Mərkəzi Komitəsinin Beşinci Plenumunun nəticələri barədə ətraflı məlumat verib.

Görüşdə qarşılıqlı maraq doğuran digər bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

XİN: Azərbaycan ASB-nin əlavə öhdəliklər yaradan sənədlərinə qoşulmayıb



Azərbaycan "Avropa Siyasi Birliyi"nin (ASB) 9-cu Zirvə toplantısı çərçivəsində qəbul olunmuş Avropa təhlükəsizliyi, miqrasiya və narkotik maddələrin dövriyyəsi ilə bağlı sənədlərə qoşulmayıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə medianın sualına cavabında bildirib.

O qeyd edib ki, noyabrın 12-də Dublin şəhərində "Avropa Siyasi Birliyi"nin Zirvə toplantısı zamanı bəzi ölkələrin təşəbbüsü əsasında irəli sürülmüş "Avropa təhlükəsizliyinin əsas prinsipləri haqqında Bəyannaməyə", "Miqrasiya haqqında Bəyanata" və "Narkotiklərə qarşı Avropa Koalisiyasının Bəyanatına" bir sıra ölkələr qoşulub.

"Məlumdur ki, ASB ölkələr arasında qarşılıqlı etimadın və əməkdaşlığın təşviqi məqsədi daşıyan qeyri-rəsmi dialoq platforması kimi formalaşıb. Ölkəmizin ASB-də iştirakının məqsədi ümumi maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparmaq, ortaq çağırışlara dair yanaşmaları müzakirə etmək və iştirakçı ölkələrlə əməkdaşlıq imkanlarını genişləndirməkdir. Bununla əlaqədar, Azərbaycan tərəfi hüquqi və siyasi cəhətdən əlavə öhdəlik yaradan sözügedən sənədlərə qoşulmayıb", - deyə Ayxan Hacızadə vurğulayıb.

Media və Yayım Şurası açıqlama yayıb



Bir sıra media resurslarında Azərbaycan ilə Ermənistan arasında transsərhəd çayların idarə olunması üzrə işçi qruplarının yaradılmasına dair xəbərlərin materialın predmetinə aid olmayan fotoşəkillərlə təqdim edilməsi manipulyativ vizual təqdimat nümunəsidir.

Bu barədə Media və Yayım Şurasının açıqlamasında bildirilib.

Açıqlamada, həmçinin deyilir: "Bu cür təqdimat auditoriyada xəbərin məzmunu, hadisənin coğrafi məkanı və tərəflər arasında aparılan əməkdaşlığın mahiyyəti barədə yanlış təsəvvür formalaşdıra bilər. Eyni görüntülərin digər media resurslarında və sosial şəbəkə platformalarında təkrar paylaşılması isə yanlış təsəvvürlərin daha geniş auditoriyaya yayılmasına və mövzu ətrafında əsassız müzakirələrin yaranmasına zəmin yaradır.

Azərbaycan Respublikası Media və Yayım Şurası media subyektlərini xəbərlərin vizual tərtibatında istifadə olunan materialların mənbəyini və çəkildiyi yeri dərc etməzdən əvvəl yoxlamağa, vizual materialların xəbərin məzmununa uyğunluğunu təmin etməyə və auditoriyanı yanıltmağa səbəb ola biləcək təqdimatlara yol verməməyə çağırır".

TÜRKPA uğurlu platformadır

Təşkilat gənc parlamentariləri bir araya gətirib

Türkiyənin paytaxtı Ankarada TÜRKPA Gənc Parlamentarilərinin toplantısı keçirilib. Tədbir Türkiyə Böyük Millət Məclisinin ev sahibliyi, Xaricdəki Türklər və Qohum İcmalar Baş İdarəsinin dəstəyi ilə təşkil edilib.

TÜRKPA-nın təsis edilməsinin 18-ci ildönümü ərəfəsində...

Açılış mərasimində çıxış edən Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuş TÜRKPA-nın təsis edilməsinin 18-ci ildönümü ərəfəsində belə mühüm bir tədbirin keçirilməsinin əhəmiyyətinə toxunub. O, türk dövlətlərinin parlamentləri arasında əlaqələrin yeni inkişaf mərhələsinə qədəm qoymasında, qardaş ölkələr arasındakı münasibətlərin dinamik şəkildə möhkəmləndirilməsində və müxtəlif istiqamətlərdə birgə fəaliyyətin həyata keçirilməsində TÜRKPA-nın mühüm rolunu qeyd edib.

TÜRKPA-nın Baş katibi Ramil Həsən rəhbərlik etdiyi qurumun müxtəlif sahələrdə həyata keçirdiyi işlərdən danışıb. Baş katib Gənc Parlamentarilər Qrupu, Qadın Parlamentarilər Qrupu və Daimi Komissiyalar çərçivəsində müxtəlif tədbirlərin keçirilməsinin qardaş ölkələr arasındakı əlaqələrin möhkəmləndirilməsinə, eləcə də qanunvericilik bazalarının yaxınlaşdırılmasına töhfə verdiyini deyib.

Xaricdəki Türklər və Qohum İcmalar Baş İdarəsinin sədri Abdulhadi Turus Türkiyənin bir çox sahədə olduğu kimi, qardaş türk dövlətlər arasındakı əlaqələrin inkişafına xidmət edən layihələrə də hərtərəfli dəstək göstərdiyini diqqətə çatdırıb. Eyni zamanda, TÜRKPA-nın Gənc Parlamentarilər Qrupunun fəaliyyətinə də dəstək verməkdən böyük məmnuniyyət duyduğunu ifadə edib.

Azərbaycan TÜRKPA-nın işində fəal iştirak edir. Xatırladaq ki, oktyabrın 20-də Qırğızıstanın Bişkek şəhərində TÜRKPA-nın 15-ci plenar iclası keçirilərkən Milli Məclisin sədri Sahibə Qafarovanın rəhbərlik etdiyi nümayəndə heyəti tədbirdə iştirak etmişdi. "Süni intellekt və texnoloji tərəqqi dövründə türk dünyasında parlament əməkdaşlığı" mövzusunda keçirilən iclas Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Şimali Kipr Türk Cümhuriyyəti (ŞKTC) parlamentlərinin sədrlərinin rəhbərlik etdiyi üzv və müşahidəçi parlamentlərin nümayəndə heyətlərini, qonaq qismində Özbəkistan Respublikası Ali Məclisinin nümayəndə heyətini, habelə Türk Dövlətləri Təşkilatı (TDT), Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY), Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyası (QDİƏT PA), İƏT-ə üzv dövlətlərin Parlament İttifaqı (İƏT Pİ), Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM), MDB Parlamentlərarası Assambleyası (MDB PA), Qlobal Tolerantlıq və Sülh Şurası (QTSŞ) və Türk Dünyası Bələdiyyələr Birliyi (TDBB) kimi türk əməkdaşlıq təşkilatları, müşahidəçi təşkilatlar və digər qurumların rəhbərlərini və nümayəndələrini bir araya gətirmişdi.


Bütövlükdə, ölkəmiz TÜRKPA çərçivəsində də fəal siyasət həyata keçirir və qurumun bütün tədbirlərində yaxından iştirak edir.

TÜRKPA-nın hədəfləri nədir?

Ümumiyyətlə, qloballaşan dünyada türk dövlətlərinin və xalqlarının birliyi zərurətə çevrilib. Sovetlər ittifaqı dağıldıqdan sonra türk dövlətləri ilə münasibətlər qurmaq və inkişaf etdirmək Azərbaycanın xarici siyasətində prioritet olub. Artıq bu gün türk dünyasının birliyi reallığa çevrilməkdədir. Türk Dövlətləri Təşkilatının (TDT) yaranması, siyasi, iqtisadi, mədəni, o cümlədən hərbi sahələrdə əməkdaşlığın gücləndirilməsi istiqamətində qəbul olunan qərarlar türk birliyinin qlobal gücə çevrilməsi yolunda atılan addımlardır. Azərbaycan türk dövlətlərinin inteqrasiyası prosesinin sadəcə iştirakçısı deyil, həm də ən fəal təşəbbüskarlarındandır.

Son illər regionda və dünyada cərəyan edən qlobal siyasi-iqtisadi proseslər də türk xalqlarının birliyini aktual məsələ kimi gündəmə gətirib. Bu mənada, türk dövlətlərinin müxtəlif təşkilatlar çərçivəsində əməkdaşlığı da xüsusi vurğulanmalıdır. Belə təşkilatlardan biri Türk Dövlətləri Parlament Assambleyasıdır (TÜRKPA). Xatırladaq ki, Türk Dövlətləri Parlament Assambleyası 21 noyabr 2008-ci ildə İstanbul şəhərinin Dolmabaxça Sarayında Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə parlament rəhbərlərinin imzaladığı sazişlə təsis olunub. 29 sentyabr 2009-cu ildə Azərbaycanın paytaxtı Bakı şəhərində TÜRKPA-nın I plenar sessiyası keçirilib. Plenar sessiyada TÜRKPA-nın Reqlamenti, Katibliyin Əsasnaməsi və Bakı Bəyannaməsi, Katibliyin daimi əsasla Bakı şəhərində yerləşməsi haqqında qərar qəbul edilib. TÜRKPA sədrliyi rotasiya üsulu ilə ildə bir dəfə bir ölkədən digərinə keçməkdədir. TÜRKPA Katibliyi Bakı şəhərində yerləşən və beynəlxalq təşkilat statusuna malik olan qurumdur.

Təşkilatın məqsədləri sırasına parlament diplomatiyası vasitəsilə dövlətlər arasında siyasi dialoqun daha da inkişaf etdirilməsinə kömək göstərmək, eləcə də tarix, mədəniyyət və dil ümumiliyinə əsaslanaraq milli qanunvericiliklərin yaxınlaşdırılması və digər məsələlərdə qarşılıqlı fəaliyyətin daha da sıxlaşdırılması daxildir. Təşkilat həm də, tərəflər arasında siyasi, sosial-iqtisadi, mədəni, humanitar, hüquqi və digər sahələrdə əlaqələrin inkişaf etdirilməsinə kömək göstərir. Eyni zamanda, təşkilata üzv ölkələrin qanunvericiliklərinin, o cümlədən mədəni irsin və tarix, incəsənət, ədəbiyyat və digər sahələrdə türk dövlətləri üçün ümumi əhəmiyyət kəsb edən dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsinə yönəlmiş qanunvericiliklərinin inteqrasiyası üzrə tövsiyələr vermək də TÜRKPA-nın fəaliyyətində vacib yer tutur. Bundan başqa, türk dövlətləri və digər region ölkələri arasında qarşılıqlı surətdə faydalı və bərabər hüquqlu əməkdaşlığın inkişaf etdirilməsi diqqət mərkəzindədir.



Azərbaycan TÜRKPA-nın işində fəal iştirak edir

Nardar BAYRAMLI

Təhsildə yeni planlar



159 min tələbəyə dövlət dəstəyi, Qarabağda yeni məktəblər...

Cəmiyyətin inkişaf səviyyəsini müəyyənləşdirən əsas amillərdən biri onun təhsil və maarifçilik sisteminin vəziyyətidir. Çünki təhsil yalnız bilik və bacarıqların aşılanması ilə məhdudlaşmır, eyni zamanda insanın dünyagörüşünün formalaşmasına, mənəvi dəyərlərin qorunmasına, elmi düşüncənin inkişafına və intellektual potensialın üzə çıxarılmasına xidmət edir. Müasir dövrdə elmi-kütləvi, mədəni-maarif və təhsil proqramlarının hazırlanması da məhz bu məqsədlərə çatmaq baxımından xüsusi əhəmiyyət daşıyır. Belə proqramlar cəmiyyətin müxtəlif təbəqələrində elmə, biliyə, mədəniyyətə və innovasiyalara marağın artırılmasına, təhsilin daha geniş auditoriya üçün əlçatan olmasına şərait yaradır.

Bu baxımdan ölkədə təhsil infrastrukturunun yenilənməsi, yeni məktəblərin inşası, tədris müəssisələrinin müasir tələblərə uyğunlaşdırılması və təhsil imkanlarının genişləndirilməsi mühüm istiqamətlərdən biri kimi diqqət çəkir. Xüsusilə, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən quruculuq işləri çərçivəsində məktəb və məktəbəqədər təhsil müəssisələrinin yaradılması yalnız infrastrukturun bərpası deyil, həm də həmin ərazilərdə sosial və mədəni həyatın canlandırılması, yeni nəslin bilik və dünyagörüşünün formalaşdırılması baxımından əhəmiyyətlidir.

Bütün bunlar göstərir ki, müasir təhsil siyasətinin qarşısında duran vəzifə yalnız yeni məktəblər tikmək və tələbələrin sayını artırmaqdan ibarət deyil. Əsas məqsəd həm də keyfiyyətli tədris mühitinin yaradılması, elmi biliklərin cəmiyyətə çatdırılması, mədəni-maarifçilik fəaliyyətinin genişləndirilməsi və öyrənmənin həyatın bütün mərhələlərini əhatə edən davamlı prosesə çevrilməsidir. Bu istiqamətdə hazırlanacaq elmi-kütləvi, mədəni-maarif və təhsil proqramları isə məktəbdən universitetə, universitetdən ictimai mühitə qədər bilik və maarifçilik körpüsünün qurulmasına xidmət etməlidir.

İşğaldan azad edilmiş ərazilərdə yeni məktəblər inşa ediləcək

2030-cu ilə qədər ümumi təhsildə infrastruktur problemlərinin aradan qaldırılması planlaşdırılır. Bu barədə elm və təhsil nazirinin müavini Kənan Kərimzadə dünən keçirilən Aqrar siyasət, Ailə, qadın və uşaq məsələləri, Elm və təhsil komitələrinin birgə iclasında deyib.

O, vurğulayıb ki, 2026-2027-ci tədris ilində 53 məktəbdə tikinti-quraşdırma işləri aparılır: "35 modul məktəbin təhvil verilməsi planımız var. 11 məktəb artıq istifadəyə verilib. Hazırda Elm və Təhsil Nazirliyinin Qarabağ və Şərqi Zəngəzurda 27 ümumi təhsil və 13 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir".

K.Kərimzadə bildirib ki, Ağdam, Ağdərə, Xocalı, Cəbrayıl, Kəlbəcər, Füzuli və Xocavənddə yeni təhsil müəssisələrinin inşası və quruculuğu həyata keçiriləcək.

Sözügedən iclasda Milli Məclisin deputatı Elnarə Akimova bildirib ki, bu gün ayrılan milyonlarla manat vəsaitin nəticəsində cəmiyyətdə haqlı etirazlara səbəb olan, qüsurlu və səthi mətnlərlə dolu dərsliklər ortaya çıxırsa, deməli, bu sahədə ciddi nəzarət boşluğu var. Onun sözlərinə görə, ayrılan vəsait daha səmərəli və məqsədyönlü xərclənməlidir.

Deputat təklif edib ki, parlamentdə Elm və Təhsil Nazirliyinin və müvafiq qurumların iştirakı ilə mütəmadi ictimai dinləmələr keçirilsin, mövcud irad və təkliflər dinlənilsin, birgə həll yolları axtarılsın: "Eyni zamanda, dərsliklərin hazırlanmasına və nəşrinə ayrılan büdcə vəsaitlərinin xərclənməsi ilə bağlı komitəyə ətraflı və şəffaf hesabat təqdim edilməsi təklif olunub".

O, həmçinin dərsliklərin qiymətləndirilməsi prosesində ictimaiyyətin, tanınmış alimlərin, mütəxəssislərin və ziyalıların real iştirakını təmin etmək, məzmun keyfiyyətinə nəzarəti gücləndirmək məqsədilə ekspertiza komissiyasının yaradılmasını təklif edib.

Deputat qeyd edib ki, parlamentdən gözlənilən təkcə büdcəni rəqəmlər əsasında təsdiqləmək deyil, həm də dövlət vəsaitinin hara və necə xərcləndiyinə, xüsusilə də uşaqların təhsil keyfiyyətinə və milli ruhuna necə xidmət etdiyinə nəzarət etməkdir.

Yeganə BAYRAMOVA

Azərbaycan Respublikası Media və Yayım Şurası

Məqalə "Azərbaycan Respublikası Media və Yayım Şurası"nın maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti üzrə hazırlanmışdır

Neçə tələbə dövlət hesabına təhsil alacaq?

K.Kərimzadənin sözlərinə görə, Azərbaycanda 120 ölkədən 11,5 min əcnəbi tələbə təhsil alır. O, bildirib ki, 2018-2019-cu tədris ilində Azərbaycanda 86 ölkədən 6 min əcnəbi tələbə təhsil alırdısa, hazırda bu rəqəm 120 ölkədən 11,5 min nəfərə çatıb.

Nazir müavini qeyd edib ki, növbəti il dövlət sifarişi və dövlət hesabına 149 min tələbənin təhsil alması, 159 min tələbəyə dövlət təqaüdünün verilməsi nəzərdə tutulub. 2027-ci ildə bu məqsədlər üçün dövlət büdcəsindən 613 milyon manat ayrılması planlaşdırılır.

Ekspertiza komissiyasının yaradılması təklif edildi

Əməyin daha yüksək qiymətləndirilməsi

Saatlıq əməkhaqqı modeli tətbiq olunur

Azərbaycanda saatlıq əməkhaqqı rejiminə keçidə hazırlıq görülür. Bununla bağlı Əmək Məcəlləsində dəyişikliklər nəzərdə tutulur. Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirib ki, hazırda ölkəmizdə əməyin ödənilməsi vaxtamuzd, işəmuzd və digər formalarda həyata keçirilir və minimum əməkhaqqı aylıq dövrü əhatə edir. Bu cür yanaşma isə qısamüddətli əməyə cəlbetmə və natamam iş saatlarında işləyənlərin əməyinin ödənilməsində qeyri-bərabərlik yaradır. İşçilərin minimum yaşayış səviyyəsini təmin etmək üçün əsas sosial siyasət aləti olaraq minimum əməkhaqqı indikatorundan istifadə olunur. Lakin minimum əməkhaqqı aləti bütün iş rejimlərində universal indikator kimi çıxış edə bilmir. Xüsusi ilə natamam və mövsümi işlərdə, qısamüddətli müqavilə tələb edilən işlərdə əməyin minimum əməkhaqqı sistemi üzərindən ödənilməsi qeyri-bərabərlik və sosial ədalətsizlik yaradır. Ona görə də bir çox ölkələrdə əməyin ödənilməsində tətbiq olunan bu modelin Azərbaycanın da əmək qanunvericiliyində təsbit edilməsi nəzərdə tutulur.

Məşğul əhalinin yalnız 35 faizi əmək müqaviləsi çərçivəsində çalışır

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Zaur Əliyev bildirib ki, ilkin mərhələdə kənd təsərrüfatı məhsullarının istehsalı və ictimai iaşə sahələrinin əhatə olunması nəzərdə tutulur. Təklif olunan dəyişiklik minimum əməkhaqqı institutunun daha çevik tətbiqinə, əməkhaqqı hesablamalarında şəffaflığın artırılmasına və beynəlxalq təcrübədə istifadə olunan yanaşmaların ölkəmizdə tətbiqinə imkan yaradacaq. Saatlıq əməkhaqqının tətbiqi azyaşlı uşaqları olan qadınların, tələbələrin, pensiyaçıların əmək bazarına çıxışını asanlaşdıran bir çalışma rejimi olaraq həm də qeyri-formal məşğulluğun rəsmiləşdirilməsinə təkan verəcək.

Hesablamalara görə, ölkədə məşğul əhalinin 65 faizi əmək müqaviləsi bağlamadan fəaliyyət göstərir.

Azərbaycanda iqtisadi fəal əhalinin sayı 5 milyon 681 min nəfər, məşğul əhalinin sayı isə 5 milyon 105 min nəfərdir. Muzdla, yəni əmək müqaviləsi əsasında çalışan vətəndaşların sayı isə 1 milyon 700 min nəfər təşkil edir. Bu rəqəmlər göstərir ki, məşğul əhalinin yalnız 35 faizi əmək müqaviləsi çərçivəsində işləyir, qalan 65 faizi isə müqavilə olmadan fəaliyyətini davam etdirir. Əmək Məcəlləsinə təqdim edilən dəyişiklik təklifləri bu nisbətin dəyişdirilməsinə xidmət edəcək.



Dünya Bankının tövsiyəsi əsasında...

Qeyd edək ki, yeni model həm də Dünya Bankının (DB) hökumət qarşısında qoyduğu tövsiyələrdən biridir. Məlumdur ki, DB dünya ölkələrində biznes mühiti və iqtisadi vəziyyətlə bağlı dərc etdiyi ənənəvi "Doing Business" hesabatını yeni illik qiymətləndirmə xülasəsi olan "Business Ready" ilə əvəz edib. Yeni hesabatdan irəli gələn tövsiyələrə uyğun olaraq Dünya Bankı Qrupu ilə Azərbaycan hökuməti 2 ildir ki, əməkdaşlıq edir və "Business Ready" hesabatının "İşçi qüvvəsi" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair Yol Xəritəsi hazırlanıb. Yol Xəritəsində məşğulluq, əmək bazarı, əməyin qiymətləndirilməsi üzrə bir sıra tədbirlərin görülməsinə dair təkliflər öz əksini tapıb ki, onlardan biri də minimum əməkhaqqının hesablanması qaydasının dəyişdirilməsidir. Belə ki, minimum əməkhaqqının strukturuna yenidən baxılması və əməyin qiymətləndirilməsi meyarının günlük deyil, saatlıq meyar üzrə hesablanması təklif olunur. Dünya Bankının təklifi əməyin qiymətləndirilməsində səmərəliliyin təmin edilməsinə, konkret olaraq işlədiyi saatlar üzrə əməyin real qiymətləndirilməsinə xidmət edir.

Əməkhaqqı artımı üçün zəmin

Dünya praktikasında, ələlxüsus da Avropa ölkələrində minimum aylıq əməkhaqqı anlayışı yoxdur, bu ölkələrdə orta və median əməkhaqqı var. Minimum əməkhaqqı texniki olaraq işçilərin saatlıq əməkhaqqına görə çəkdikləri əməyin dəyərləndirilməsinə görə, təyin olunan maddi dəyər kimi çıxış edir. Yəni rəsmi ştat cədvəlində aylıq əməkhaqqı alan şəxslərlə yanaşı, günəmuzd, yəni günlük işlədiyi saatların dəyərinə uyğun maaş alan işçilər də mövcuddur. Dövlət idarələri, ictimai təşkilatlar, publik hüquqi şəxslər və digər müəssisələrdə, eləcə də müdafiə, hərbi təhlükəsizlik və s. sahələrdə standart aylıq maaş təyin edilir. Daha çox özəl və biznes sektorunda isə saatlıq əməkhaqqı üzrə hesablanan əmək normativləri mövcuddur. Bu əməkhaqqı üzrə əməyin dəyərini ölkənin sosial müdafiə orqanları, həmkarlar ittifaqları və işəgötürən qurumların birgə təklifi əsasında müəyyən edərək saatlıq iş hesablanır. Məsələn, Avropada bir saat əməyin dəyəri orta hesabla 20-35 avrodur. İşçi gün ərzində 8 saat, ayda 170 saat çalışdığı halda onun 3000-4500 avro civarında əməkhaqqısı yaranır. İşçinin günün müxtəlif saatlarında iş rejimi 8 saat, digər günlərdə 4,5, 6 saat da ola bilər. Bu, işəgötürən və işçi ilə razılaşdırılmış əmək və ya mülki müqavilədə öz əksini tapır.

Beləliklə, yeni mexanizmin tətbiqi əməkhaqqının aylıq deyil, saatlıq olaraq hesablanmasına gətirib çıxaracaq. Bu növ əməkhaqqının hesablanması vətəndaşlara işlədikləri müddətin saatlar üzrə hesablanması və onların əməkhaqlarında artımların reallaşmasına gətirib çıxara bilər. Eyni zamanda, vətəndaş saatlar üzrə differensial olaraq bir deyil, bir neçə iş yerində çalışa bilər. Bu da onun əməkhaqqının artmasına gətirib çıxaran faktorlardan olacaq. Beynəlxalq təcrübəni nəzərə alsaq, bu qeyri-iş günlərində və iş saatlarından sonra çalışan vətəndaşlarının əməkhaqlarında xüsusi əmsalların tətbiq edilməsinə və daha çox əməkhaqqı almasına səbəb ola bilər.

E.CƏFƏRLİ

Sahibkarlar üçün "Yaşıl kredit"

Biznesin İnkişafı Fondu 50 min - 10 milyon manat həcmində kreditlər təklif edir

İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu (ABİF) sahibkarların maliyyə resurslarına çıxışını genişləndirmək və yaşıl layihələrin reallaşmasına dəstək vermək məqsədilə yeni "Yaşıl kredit" məhsulunu təqdim edib. Fonddan bildirilib ki, bu kredit məhsulu çərçivəsində sahibkarlara 50 min manatdan 10 milyon manatadək, 120 ayadək müddətə və illik 5 faizədək faiz dərəcəsi ilə kreditlər veriləcək. Sahibkarlar kredit müddətinin yarısınadək olan dövrdə borcun əsas hissəsinin ödənilməsinə möhlət ala bilərlər. Bu imkan layihələrin ilkin mərhələsində sahibkarların maliyyə yükünü azaldır. Kredit məbləğinin 50 faizədək hissəsi tikinti və təmir xərclərinə yönəldilə bilər. 500 min manatdan yuxarı kredit məbləği üçün sahibkarlar layihənin ümumi dəyərinin ən azı 20 faizini öz vəsaitləri hesabına təmin etməlidirlər.

"Yaşıl kredit" iqlim dəyişmələrinin təsirlərinin yumşaldılması, bərpaolunan enerji, resurslardan səmərəli istifadə, karbon emissiyasının və tullantıların azaldılması kimi istiqamətlərdə layihələrin əsaslı xərclərinin maliyyələşdirilməsinə yönəlib. Bu maliyyələşmə mexanizmi yaşıl texnologiyaların tətbiqinin genişləndirilməsinə, ekoloji cəhətdən dayanıqlı biznes modellərinin inkişafına və sahibkarların yaşıl transformasiya prosesində iştirakının təşviqinə imkan verəcək.



2060-cı ilə qədər 44 milyard dollar ...

Azərbaycan hökuməti təmiz enerjiyə keçid strategiyası çərçivəsində karbon və metan emissiyalarının azaldılması, "yaşıl" texnologiyalara tətbiqin geniş yer verilməsi, "yaşıl iqtisadi resurslara" əsaslanan müasir istehsal və emal bölmələrinin yaradılması ilə bağlı ardıcıl addımlar atmaqdadır. "Azərbaycan-2030" konsepsiyasında müəyyən edilmiş beşinci milli prioritet - "Təmiz ətraf mühit və "yaşıl" inkişaf ölkəsi də bu prinsiplərə əsaslanır və əsas məqsəd karbonsuzlaşdırma yönümlü idarəetmənin təmin olunmasıdır. Bu baxımdan dünya ölkələrində geniş tətbiq olunan "yaşıl maliyyə" alətlərinə geniş yer verilməkdədir. Biznesə təklif edilən "yaşıl kredit" də bu strateji hədəfə xidmət edir.

Azərbaycan Banklar Assosiasiyasının (ABA) sədri Zakir Nuriyevin fikrincə, karbon emissiyalarının azaldılmasına xidmət edən həmin maliyyə təminatlarının qlobal səviyyədə yaradılması üçün yüz milyardlarla dollar lazımdır. Araşdırmalara görə, 2030-cu ilədək illik 8-9 trilyon dollar, 2050-ci ilə qədər isə illik 10-11 trilyon dollar iqlim maliyyəsi tələb olunur. Ümumilikdə isə "netto sıfır" üçün təxminən 270 trilyon dollar lazımdır. Azərbaycan qlobal alyansın üzvü kimi "yaşıl iqtisadiyyat" quruculuğunda "yaşıl maliyyə"nin əhəmiyyətinə xüsusi önəm verir və dayanıqlı maliyyə imkanlarını səfərbər etməyə çalışır. Qiymətləndirmələrə əsasən, Azərbaycanın karbon emissiyalarını azaltmaq üçün 2060-cı ilə qədər 44 milyard dollar məbləğində investisiyaya ehtiyacı var. Bu investisiyaların əhəmiyyətli bir hissəsi özəl sektorun, eləcə də bank sektorunun maliyyə təminatı ilə təmin edilə bilər.

"Yaşıl istiqraz və səhm" buraxılışına hazırlıq

Qeyd edək ki, ölkəmizdə "yaşıl kreditləşmə" üçün institusional baza və hüquqi çərçivə təmin olunub və beynəlxalq təcrübə nəzərə alınmaqla təkmilləşdirilir. Mərkəzi Bank tərəfindən təsdiq edilmiş "Yaşıl Taksonomiya" sənədi dayanıqlı maliyyə ekosisteminin formalaşdırılması, daxili və xarici resursların yaşıl və dayanıqlı layihələrə yönəldilməsi, iqlim dəyişikliyindən yaranan risklərin tənzimlənməsi, aşağı karbon iqtisadiyyatına keçid ilə bağlı önə çıxan layihələrə dəstək verilməsini nəzərdə tutur. Məhz bu prinsiplərə uyğun olaraq bank sektoru bərpaolunan enerji, su resurslarının dayanıqlı idarə edilməsi, çirklənmənin qarşısının alınması və ona nəzarət, dayanıqlı kənd təsərrüfatı, fermer təsərrüfatı, biomüxtəliflik və mühafizə, "yaşıl binalar" və dayanıqlı inşaat, "yaşıl xidmətlər" sahələrinə kreditləşməni artırıb.

Həmin hüquqi çərçivəyə əsasən, "yaşıl istiqrazlar"ın buraxılışı istiqamətində işlər aparılır. Azərbaycanın bank sistemi üçün bu istiqrazların emissiyası vacib hesab edilir və bunun üçün qabaqcıl beynəlxalq təcrübə hərtərəfli nəzərdən keçirilir. "Yaşıl istiqrazlar" maliyyə sektorunda davamlılığı təşviq etmək, iqlimlə əlaqəli və ya digər növ xüsusi ekoloji layihələri dəstəkləmək və sosial və ətraf mühitin yaxşılaşdırılmasına töhfə vermək baxımından daha cəlbedicidir.

Eləcə də "yaşıl səhm"lərin də emissiyası prioritetlərdən biridir. Hazırda Dünya Bankı "yaşıl istiqraz" və "yaşıl səhm" buraxılışında əsas maliyyə institut və emitent kimi fəallığını daha çox artırmaqdadır. Bank son 5 ildə 200 milyard dollara yaxın istiqraz emissiya edib. Həmçinin, Avropa Komissiyası "yaşıl" istiqrazlar"ın emissiyasına 20 milyard avro vəsait xərcləyib. Azərbaycanın bank icması beynəlxalq institutlarla, o cümlədən Dünya Bankı və Avropa Komissiyası ilə bu istiqamətdə əməkdaşlığı artırmağı düşünür.

E.CƏFƏRLİ

Format dəyişir...

Nəticəsi nə olacaq?

ABŞ hesab edir ki, Avropadakı müttəfiqlərinin danışıqlarda iştirakı olmadan razılıq əldə edilə bilməz

ABŞ-ın vasitəçiliyi ilə Rusiya-Ukrayna müharibəsinin həlli ilə bağlı üçtərəfli danışıqlar 10-11 noyabr tarixlərində BƏƏ-nin paytaxtı Əbu-Dabi şəhərində baş tutub. Görüşdə tərəflər növbəti əsir mübadiləsi ilə bağlı razılığa gəliblər. Rusiya nümayəndə heyətinin rəhbəri və Rusiya Prezidentinin köməkçisi Vladimir Medinski mübadilə parametrlərinin tezliklə açıqlanacağını bildirib.

Avropalı diplomatlar Əbu-Dabi görüşündə iştirak etməyib

Medinski danışıqlardan sonra keçirilən mətbuat konfransında Ukraynadakı münaqişənin bitməsindən sonra Avropa təhlükəsizlik sisteminin gələcəyini danışıqların əsas mövzusu kimi müəyyən edib. O, münaqişənin mövcud sistemin səmərəsiz olduğunu göstərdiyini bildirib. RF Prezidentinin köməkçisi əlavə edib ki, yeni sistem bütün ölkələrin maraqlarını nəzərə almalıdır. Medinski bildirib ki, Amerika tərəfinin iştirakı ilə nümayəndə heyətləri mövqelərini bölüşüb və bir sıra məsələlərdə qarşılıqlı anlaşma əldə ediblər. O, müzakirələrin davam edəcəyini deyib. Jurnalistlərin suallarını cavablandıran RF Prezidentinin köməkçisi qeyd edib ki, danışıqların təfərrüatları yekun razılaşmalar əldə edildikdən sonra açıqlanacaq.

Rusiya nümayəndə heyətinin rəhbəri, həmçinin Əbu-Dabidəki Avropa nümayəndələri ilə heç bir əlaqələrinin olmadığını deyib. Lakin ABŞ Prezidentinin xüsusi nümayəndəsi Cared Kuşner Dublində jurnalistlərə açıqlamasında bildirib ki, Ukraynadakı münaqişənin həlli ilə bağlı razılaşma ABŞ-ın Avropadakı müttəfiqlərinin danışıqlarda iştirakı olmadan əldə edilə bilməz. O qeyd edib ki, ABŞ son bir neçə ay ərzində Avropa ölkələri ilə bu məsələ üzrə sıx əməkdaşlıq edir: "Son bir neçə ay ərzində avropalılarla çox sıx əməkdaşlıq etmişik və hesab edirəm ki, bu, olduqca vacibdir. Avropalılar danışıqlar masasında olmadan bu razılaşmanı əldə edə bilmərik".



Putin: Moskva ilə dialoq Avropanın təşəbbüsü ilə dayandırılıb

Xatırladaq ki, Əbu-Dabidə keçirilən görüşdən sonra ABŞ Prezidentinin xüsusi nümayəndələri Moskvaya gediblər. Rusiya Prezidenti Vladimir Putin Kremldə ABŞ Prezidentinin xüsusi nümayəndələri Stiv Uitkoff və Cared Kuşnerlə görüşüb. Görüşdə Ukrayna ilə bağlı Əbu-Dabidə keçirilmiş üçtərəfli danışıqların nəticələri, qarşıdakı əsir mübadiləsi və münaqişənin nizamlanmasında Avropa ölkələrinin iştirakı müzakirə edilib. Görüş təxminən 2,5 saat davam edib.

Görüşdə Rusiya tərəfini Rusiya Prezidentinin köməkçiləri Vladimir Medinski və Yuri Uşakov, eləcə də dövlət başçısının xüsusi nümayəndəsi, Rusiya Birbaşa İnvestisiyalar Fondunun rəhbəri Kirill Dmitriyev təmsil ediblər. V.Putin humanitar məsələlərin həllində irəliləyiş əldə olunduğunu qeyd edib. Rusiya Prezidenti Oleşkidə həyata keçirilən missiyanın nümunəsində Konstantinovkada da humanitar missiyanın təşkilini təklif edib. O bildirib ki, şəhər Rusiyanın nəzarətindədir və missiyanın təhlükəsizliyini təmin etməyə hazırdır. Onun sözlərinə görə, Konstantinovka ətrafındakı ərazinin minalardan təmizlənməsi üçün Rusiya tərəfinə beş gün vaxt lazım olacaq. V.Putin, həmçinin Kiyevin qaldırdığı "boz zonalar" məsələsindən Moskvanın xəbərdar olduğunu bildirib. Onun sözlərinə görə, Rusiya Ukrayna ilə yeganə sərhəd xətti kimi dövlət sərhədini qəbul edir.

Avropa ölkələrinin münaqişənin nizamlanmasında iştirakından danışan Rusiya Prezidenti Moskva ilə dialoqun Avropa tərəfinin təşəbbüsü ilə dayandırıldığını bildirib. O vurğulayıb ki, Rusiya lap əvvəldən xarici hərbi kontingentin Ukraynada mövcudluğunu qəbuledilməz hesab edib və belə qoşunlar yerləşdiriləcəyi təqdirdə onları öz silahlı qüvvələri üçün qanuni hədəf hesab edəcək. V.Putin ABŞ-ın Avropa ölkələrinə sülhü, yoxsa müharibəni seçməkdə qərarlarını müəyyənləşdirməkdə kömək edəcəyinə ümidvar olduğunu bildirib. O, Ukraynada sülhün əbədi olmasını istədiyini də əlavə edib.

Öz növbəsində, Uitkoff Əbu-Dabidə danışıqların müsbət şəraitdə keçdiyini, Rusiya və Ukrayna nümayəndə heyətlərinin səmərəli fəaliyyət göstərdiyini bildirib. O, Rusiya ilə Ukrayna arasında qarşıdakı əsir mübadiləsini müsbət qərar adlandırıb. ABŞ Prezidentinin xüsusi nümayəndəsi əlavə edib ki, Avropa nümayəndələri Əbu-Dabidə keçirilən danışıqlarda bilavasitə iştirak etməsələr də, baş tutmuş təmaslar barədə məlumatlandırılıblar.

Növbəti görüşlə bağlı razılıq əldə olunub

C.Kuşner isə deyib ki, ABŞ Avropa ölkələri ilə qitədə təhlükəsizlik arxitekturasını müzakirə etməyə başlayıb. Vaşinqton Avropa ölkələrinin danışıqlarda iştirak etməyə və Ukraynadakı münaqişənin başa çatmasına kömək göstərməyə hazır olduğunu görür.

Moskvadan sonra ABŞ Prezidentinin xüsusi nümayəndələri Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşmək üçün Dublinə gediblər. Zelenski Dublində onlarla keçirilən danışıqların yekunlarına əsasən, müharibə başlayandan bəri ən böyük əsir mübadiləsinə hazırlıq getdiyini açıqlayıb. Bu barədə Ukrayna lideri "X" sosial şəbəkədə yazıb: "Biz bu həftə keçirilən bütün danışıqların yekunlarını müzakirə etmək üçün İrlandiyada Stiv Uitkoff və Cared Kuşnerlə görüşdük. İlk nəticə humanitar xarakter daşıyır: əsirlər azad ediləcək və biz bu müharibənin başlanğıcından bəri ən böyük əsir mübadiləsinin baş tutacağına ümid edirik". Onun sözlərinə görə, ikinci nəticə Avropa nümayəndələrinin diplomatik prosesə daha fəal cəlb olunmasıdır. Bu, onlara danışıqlarda bərabərhüquqlu tərəf kimi iştirak etmək imkanı verəcək. "Ukrayna hər zaman bütün Avropanın maraqlarını müdafiə edir", - deyə prezident vurğulayıb.

Zelenski, həmçinin yeni çoxtərəfli görüşlərə hazırlıq getdiyini və diplomatik fəaliyyətin davam etdiriləcəyini bildirib. Yeri gəlmişkən, Uitkoff da növbəti görüşlə bağlı tərəflər arasında razılıq əldə edildiyini açıqlayıb. Həmin görüşdə Avropa nümayəndələrinin də iştirak edəcəyi istisna olunmur.

N.BAYRAMLI

İspaniyada hakimiyyət dəyişə bilər

29 noyabr seçkilərindən nə gözlənilir?



İspan xalqı yeni hökumət seçməyə hazırlaşır. Baş nazir Pedro Sançes hakimiyyətdə qalmaq, müxalifət isə hökuməti dəyişmək istəyir. Bu mübarizənin nəticəsi Avropa və Azərbaycana da təsir göstərə bilər.

Noyabrın 29-da İspaniyada parlament seçkiləri keçiriləcək. Bu seçkilərdə ölkənin gələcək dörd il ərzində necə idarə olunacağı müəyyənləşəcək. Hazırkı Baş nazir Pedro Sançes və onun rəhbərlik etdiyi Sosialist Partiyası hakimiyyətdə qalmağa çalışır. Müxalifətdəki Xalq Partiyası isə hökuməti dəyişmək istəyir. Bu mübarizədə onların əsas köməkçisi ola biləcək siyasi qüvvə isə Vox Partiyasıdır.

İspaniyada baş verənlər başqa ölkələrdə də diqqətlə izlənir, çünki İspaniya Avropanın böyük dövlətlərindən biridir. Bu ölkənin iqtisadiyyatı, xarici siyasəti, enerji imkanları və Avropa İttifaqındakı mövqeyi mühüm əhəmiyyət daşıyır. Bəs ispan xalqı hökumətdən niyə narazıdır? Seçkilərdə kimin qalib gəlmək şansı daha çoxdur? Hakimiyyət dəyişərsə, İspaniyanın siyasətində nə dəyişəcək? Ən başlıcası, bütün bunların Azərbaycana nə aidiyyəti var?

İnsanlar nədən narazıdırlar?

İspaniyada son dövrlər insanların gündəlik həyatına təsir edən bir neçə ciddi problem yaranıb. Bunların başında ev və kirayə qiymətlərinin artması, yaşayış xərclərinin çoxalması, miqrasiya və hökumətin fəaliyyətinə inamın azalması gəlir. Məsələn, Madrid və Barselonada mənzil almaq bir çox gənc üçün getdikcə çətinləşir. İnsan işləyir, maaş alır, amma qazandığı pulun böyük hissəsini ev kirayəsinə verir. Bəzən bir neçə nəfər birlikdə yaşamaq məcburiyyətində qalır. Gənclər ailə qurub ayrıca evə köçmək istəsələr də, buna maddi imkanları çatmır. Bu, yalnız İspaniyaya aid problem deyil, Avropanın bir çox ölkəsində oxşar vəziyyət müşahidə olunur. Ancaq İspaniyada mənzil məsələsi artıq siyasi mübarizənin əsas mövzularından birinə çevrilib.

Baş nazir Pedro Sançes problemin həlli üçün yeni tədbirlər görəcəyini bildirir. O, insanların daha münasib qiymətə ev tapmasını və dövlətin mənzil məsələsində daha fəal iştirak etməsini istəyir. Müxalifət isə hökuməti vədlər verməkdə, lakin problemləri çözə bilməməkdə qınayır. İnsanların narazılığına səbəb olan başqa məsələ korrupsiya iddialarıdır. Sançesin yaxın siyasi çevrəsindəki bəzi şəxslərlə bağlı araşdırmalar hökumətə qarşı tənqidləri artırıb. Müxalifət baş nazirdən məsuliyyət tələb edir, Sançes isə siyasi fəaliyyətini davam etdirərək seçkilərdə xalqın dəstəyini qazanmağa çalışır. Beləliklə, ispan seçici noyabrın 29-da bu və ya digər partiyaya tərəfdar çıxmaqla ölkənin indiki vəziyyətdə necə idarə olunacağına qərar verəcək.

Dörd əsas siyasi qüvvə mübarizə aparır

İspaniyada seçkinin nəticəsinə təsir göstərə biləcək əsas siyasi qüvvələri qısaca təqdim edəsi olsaq, birinci qüvvə hazırkı baş nazir Pedro Sançesin rəhbərlik elədiyi Sosialist Partiyasıdır. Bu partiya insanların sosial problemlərinin həllində dövlətin daha yaxından, daha çox iştirakını istəyir, pensiyaların, sosial yardımların, əmək hüquqlarının və dövlət xidmətlərinin qorunmasını vacib sayır. Sançesin başlıca hədəfi hakimiyyətdə qalmaqdır.

İkinci qüvvə Alberto Nunes Feyxoonun rəhbərlik etdiyi Xalq Partiyasıdır. Bu partiya hökumətin iqtisadi və sosial siyasətini tənqid edir. Vergilərin azaldılmasını, biznes üçün daha əlverişli şərait yaradılmasını və dövlət idarəçiliyində dəyişikliklərə gedilməsini lazım bilir. Feyxoo baş nazir olmaq istəyir.

Üçüncü qüvvə Santyaqo Abaskalın rəhbərlik etdiyi Vox partiyasıdır. Bu partiya miqrantların ölkəyə girişinə daha sərt nəzarət edilməsini, İspaniyanın mərkəzi hakimiyyətinin gücləndirilməsini və ölkənin ənənəvi dəyərlərinin qorunmasını istəyir. Vox əsasən saga meyilli seçicilər arasında dəstək qazanmağa çalışır.

Dördüncü qüvvə isə solçu partiyalardır. Onlar Sançesin tərəfdarlarıyla birlikdə hərəkət edərək sağçı partiyaların hakimiyyətə gəlməsinin qarşısını almaq istəyirlər. Burada bir vacib məqam var: İspaniyada birinci yeri tutan partiya mütləq şəkildə hökuməti qura bilmir, çünki parlamentdə hökumət yaratmaq üçün kifayət qədər səs toplamaq lazımdır. Buna görə kiçik partiyaların da mövqeyi bəzən həlledici olur.

Seçkidə kim qalib gələ bilər?

Hazırda yayımlanan rəy sorğularının əksəriyyətində Xalq Partiyası birinci yerdədir. Onun əsas rəqibi Sançesin Sosialist Partiyasıdır. Vox isə üçüncü yerdə qərarlaşır. Noyabrın 7-dək açıqlanmış müxtəlif sorğuların nəticələrini ortaq məxrəcə gətirsək, vəziyyət təxminən belədir:

Partiya	Gözlənən səs faizi
Xalq Partiyası	31,1%
Sosialist Partiyası	26,6%
Vox	19%
Solçu qüvvələr	7%

Bu rəqəmlər seçki nəticəsi deyil, insanların hazırda hansı partiyaya səs vermək istədiklərini göstərən sorğu nəticələridir. Ən diqqətçəkən məqam Xalq Partiyası ilə Vox-un birlikdə hökumət qurmaq imkanının olmasıdır. Mövcud proqnozlara əsasən, bu iki partiya parlamentdə kifayət qədər yer qazana bilər. Başqa sözlə, Xalq Partiyası seçkidə birinci olsa, Vox-un dəstəyilə hakimiyyətə gələ bilər. Bu isə İspaniyada uzun müddətdən sonra sağçı hökumətin formalaşması demək olacaq.

Lakin Sançesin də şansı tam tükənməyib. Seçkiyə qədər baş verəcək hadisələr, insanların son qərarı və partiyaların bir-birinə dəstəyi nəticəni dəyişə bilər.

Xarici media nə yazır?

İspaniyadakı seçkilər yalnız ölkənin özündə müzakirə olunmur, dünyanın aparıcı media qurumları da bu siyasi mübarizəni izləyir. "Associated Press" yazır ki, Sançes seçkiləri vaxtından əvvəl keçirməklə siyasi vəziyyəti öz xeyrinə dəyişmək istəyir, ancaq korrupsiya iddiaları və insanların sosial problemləri onun qarşısında ciddi maneələr yaradır. "The Guardian" hökumətin xüsusilə nəqliyyat təhlükəsizliyi və dövlət xidmətləriylə bağlı tənqidlərlə üzləşdiyini vurğulayır. "Le Monde" İspaniyada hökumətə qarşı narazılığın artmasına, mənzil probleminə və müxalifətin hakimiyyətə gəlmək imkanlarına diqqət yetirir. "The Washington Post" da ölkədə insanların yaşayış şəraiti, mənzil qiymətləri və hökumətin seçki strategiyası ilə bağlı məsələləri işıqlandırır. "Financial Times" hesab edir ki, hökumətin üzləşdiyi problemlər müxalifətin imkanlarını artırır. Xüsusilə Xalq Partiyası ilə Vox-un birgə hakimiyyət qurma ehtimalı diqqət çəkir. Reuters isə seçkilərin nəticəsinin yalnız İspaniyanın daxili siyasətinə yox, Avropadakı siyasi qüvvələrin münasibətinə də təsir göstərə biləcəyini qeyd edir.

Bu materiallardan çıxan ümumi nəticə belədir: beynəlxalq müşahidəçilərin əksəriyyəti İspaniyada sağçı qüvvələrin hakimiyyətə gəlmə ehtimalını ciddi sayır. Ancaq seçki bitməyincə bunu qəti nəticə kimi qəbul etmək olmaz.

İspaniyada hakimiyyət dəyişsə, Avropada nə baş verəcək?

İspaniyada mümkün hakimiyyət dəyişikliyi Avropa üçün də əlamətdardır, çünki son illər Avropanın müxtəlif ölkələrində sağçı partiyaların tərəfdarları artır.

İnsanlar xüsusilə üç məsələdən narazıdırlar: miqrasiya, yaşayış xərcləri və təhlükəsizlik. Bəzi seçicilər düşünürlər ki, ənənəvi partiyalar bu problemlərin öhdəsindən gələ bilmir, buna görə də daha sərt siyasət yürüdən partiyalara üstünlük verirlər.

İspaniyada da oxşar vəziyyət yaranıb: əgər Xalq Partiyası və Vox hakimiyyətə gəlsə, ölkədə miqrasiya qaydalarının sərtləşdirilməsi mümkündür. Dövlətin bölgələr üzərində nəzarətinin artırılması, vergilərin azaldılması və bəzi sosial proqramların yenidən nəzərdən keçirilməsi də gündəmə gələ bilər. Bu dəyişikliklər Avropa İttifaqında da müzakirələrə səbəb olacaq, çünki İspaniya Avropanın böyük dövlətlərindən biridir və onun mövqeyi bir çox qərarlara təsirsiz qalmır. Məsələn, Sançes Avropada sosial-demokrat yönümlü siyasətin əsas müdafiəçilərindən biridir, sosial müdafiənin gücləndirilməsini və dövlətin iqtisadiyyatda fəal rol oynamasını dəstəkləyir. Yeni sağçı hökumət isə bu məsələlərə başqa cür yanaşa bilər. Bununla belə, İspaniyanın Avropa İttifaqından uzaqlaşacağı və ya NATO siyasətini dəyişəcəyi barədə danışmaq düzgün olmaz. Hətta sağçı hökumət belə ölkənin Avropadakı başlıca iqtisadi və siyasi maraqlarına toxunmayacaq.

Bəs bunun Azərbaycana nə aidiyyəti?

İlk baxışda İspaniyada keçirilən seçkilərin Azərbaycana birbaşa aidiyyəti olmadığı düşünülə bilər. Ancaq məsələ o qədər də sadə deyil. İspaniya Avropa İttifaqının üzvüdür, Azərbaycan isə Avropa ölkələriylə enerji, ticarət, nəqliyyat və iqtisadi əməkdaşlığı genişləndirməyə çalışır. Buna görə Madriddə hansı hökumətin fəaliyyət göstərəcəyi Azərbaycanın Avropa ilə münasibətləri baxımından da əhəmiyyətlidir. Son illər Azərbaycanla İspaniya arasında iqtisadi əlaqələrin inkişafı istiqamətində addımlar atılıb. 2025-ci il mart ayının 11-də iki ölkə arasında iqtisadi əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb. Sənəd ticarətin artırılmasını, şirkətlər arasında əlaqələrin genişləndirilməsini və yeni investisiya imkanlarının yaradılmasını nəzərdə tutur. İspaniya şirkətləri Azərbaycan bazarı üçün xüsusilə maraqlı sahələrdə fəaliyyət göstərir, bunlara enerji, tikinti, kənd təsərrüfatı texnologiyaları, turizm və sənaye daxildir. 2024-cü ildə İspaniyadan Azərbaycana ixracın 81 milyon avroya çatması və əvvəlki illə müqayisədə 66 faiz artması iqtisadi əlaqələrin inkişaf etdiyini göstərir. 2026-cı ilin oktyabr ayının 6-7-də Azərbaycan xarici işlər nazirinin müavini Elnur Məmmədovun İspaniyaya səfəri zamanı iki ölkənin nümayəndələri siyasi və iqtisadi əməkdaşlığı müzakirə ediblər. Görüşlərdə enerji, yaşıl enerji, təhsil, turizm, nəqliyyat və logistika məsələlərinə xüsusi diqqət yetirilib. Bu, onu göstərir ki, Azərbaycanla İspaniya arasında əlaqələr diplomatik görüşlərlə məhdudlaşmır, iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün də real imkanlar var.

İspaniya ilə əməkdaşlığın ən vacib istiqamətlərindən biri enerji sahəsidir. Bu ölkə günəş və külək enerjisindən istifadə sahəsində böyük təcrübəyə malikdir. Azərbaycan da son illər yaşıl enerji layihələrinə xüsusi diqqət ayırır. Xəzər dənizində külək enerjisi istehsalı, günəş elektrik stansiyaları və enerji ixracıyla bağlı layihələrdə İspaniya şirkətlərinin iştirakı faydalı ola bilər.

İkinci mühüm istiqamət nəqliyyatdır. Asiya ilə Avropa arasında yükdaşımaların həyata keçirilməsində Azərbaycanın mühüm mövqeyi var. Orta Dəhliz adlandırılan marşrut Çin və Mərkəzi Asiyadan gələn yüklərin Azərbaycan üzərindən Avropaya çatdırılmasına imkan verir. İspaniya şirkətləri bu marşrutdan istifadə etməklə Asiya bazarlarıyla əlaqələrini genişləndirə bilər. Azərbaycan isə nəqliyyat və logistika sahəsində yeni tərəfdaşlar qazanar.

Üçüncü istiqamət ticarətdir. İspaniyanın kənd təsərrüfatı, qida sənayesi, turizm və sənaye sahələrində təcrübəsi Azərbaycan üçün maraqlıdır. İki ölkə arasında ticarətin artırılması həm şirkətlər, həm də istehlakçılar üçün yeni imkanlar yarada bilər. Təhsil və texnologiya sahəsində əməkdaşlıq da diqqətdən kənarda qalmamalıdır. İspaniya universitetləri ilə Azərbaycan ali təhsil müəssisələri arasında tələbə mübadiləsi, elmi layihələr və birgə təlim proqramları təşkil edilə bilər.

Ən vacib suallardan biri budur: Pedro Sançes seçkini uduzsa və Alberto Nunes Feyxoo baş nazir olsa, Azərbaycan-İspaniya münasibətlərində nə dəyişəcək? İndiki məlumatlara əsasən, ciddi dəyişiklik gözləmək üçün əsas yoxdur. Sançes hakimiyyətdə qalarsa, son illər qurulmuş əməkdaşlığın davam etdirilməsi daha asan olacaq. Yeni hökumət formalaşarsa, Azərbaycan münasibətləri həmin hökumətlə də davam etdirməli olacaq. Çünki ölkələr arasındakı münasibətlər yalnız bir baş nazirin və ya bir siyasi partiyanın qərarlarından asılı olmamalıdır. Enerji, ticarət, nəqliyyat və təhsil sahələrində əməkdaşlıq hər iki dövlətin maraqlarına uyğundur. Azərbaycanın əsas gözləntisi də məhz budur: İspaniyada kim hakimiyyətə gəlir gəlsin, iki ölkə arasında qurulmuş iqtisadi və siyasi əlaqələr inkişaf etdirilsin.

Seçkilərin 3 mümkün nəticəsi

Hazırkı göstəricilərə əsaslansaq, üç mümkün variant var. Birinci variantda Xalq Partiyası və Vox seçkidə kifayət qədər səs toplayaraq hökumət qurur. Bu, İspaniyada sağçı siyasi xəttin güclənməsi demək olacaq. İkinci variantda Sançesin rəhbərlik etdiyi Sosialist Partiyası seçkidə gözləndiyindən yaxşı nəticə göstərir və digər solçu partiyaların dəstəyilə hakimiyyətdə qalır. Belə olan halda indiki siyasi xəttin yürüdülməsi davam edəcək. Üçüncü variantda isə heç bir siyasi qüvvə hökumət qurmaq üçün kifayət qədər dəstək toplamır. Bu zaman partiyalar arasında uzun danışıqlar başlana, hökumətin formalaşması çətinləşə bilər. Hazırda birinci variant daha real görünür, lakin son qərarı noyabrın 29-da səsverməyə gedəcək İspaniya vətəndaşları verəcəklər.



Kəramət QƏNBƏROV
Beynəlxalq hüquq üzrə ekspert

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com


Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:


“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“PressİnformMMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744


1 illik abunə - 158,40 AZN
6 aylıq abunə - 79,20 AZN






Şənbə üçün nəzm







Ramiz Qusarçaylı

Yağının min hiyləsi küydən, kələkdən keçər,
Sən sancılan ucalıq min-min ürəkdən keçər,
Dağlar yerindən oynar, daşlar ələkdən keçər,
Göylərin nur yağmuru, yerlərin göy qurşağı,-
Azərbaycan bayrağı!

Sən Arazın, Samurun umuduna bələndin,
Çəni ağlar Göyçənin buluduna bələndin,
Dərbəndin dərd hıçqıran sükutuna bələndin
O tayımda Savalan, bu tayımda Şah dağı,
Azərbaycan bayrağı !

Cəngidə cövlan yerim, cövlanda can yerimsən,
Barışda gül çələngim, savaşda qan yerimsən,
Sən mənim and yerimsən, mənim iman yerimsən,
Dalğalı ləngərlərin yelpiklənən yarpağı,-
Azərbaycan bayrağı !

Sənsən Azadlıq eşqim, sənsən Hürr,- deyəcəyəm,
Ən son nəfəsimdə də sənə şeir deyəcəyəm,
Şuşada sən qonduğun daşa pir deyəcəyəm,
Çəkəcəyəm gözümə kölgən düşən torpağı
Azərbaycan bayrağı !
Azərbaycan bayrağı !

DƏN DAŞI

Gedəsən dünyanın axırınacan,
bir misra xətrinə ölüb gedəsən.
Qaçıb adamından naxırınacan
izini, tozunu silib gedəsən...

Səhərin zərində üzən lək kimi,
düzəsən sətrinə gül adlarını.
Tikana sancılan kəpənək kimi
meh döyə şeirinin qanadlarını.

Yemşan çiçəyində iynə gəzəsən,
tel-tel ləçəklənə arı köynəyi.
Buludlar içindən ayı süzəsən
yarpaqlar içindən sarıköynəyi...

Alasan könlünü şehli nərgizin,
bənövşə ovlaya hər kolda səni.
Coşa yamacların yovşan dənizi
yuyub dalğa-dalğa durulda səni.
... Üyütmə bu dərdi,
dən daşı çəkməz,
dərdini quzu tək qırpıb gedəsən.
Bu mizan-tərəzi mən daşı çəkməz
özünü daşlara çırpıb gedəsən...

Gedəsən, hər şeyi yarımçıq qoyub,
bir təbiət ola,
bir də bu ürək.
Dünyanın sonuna alaçıq qoyub
İşini qurasan qarışqalar tək...

QUM ZƏMİSİ

Bu gün kitabımın birini satdım,
Bir kilo ət aldım balalarıma.
Bu gün də başımı şeirlə qatdım
Qafiyə tapmadım bəlalarıma ...

Seyr edib Qubanı Qız bənövşədən
Çırpdım ürəyimi qəm zəmisinə.
Çırpıldı kirayə çadırdan Vətən,-
Kirayə evimin zirzəmisinə.

Söz inad şumunda şişir dən kimi,
Dərddi misra-misra düzdüyüm mənim.
Yağış yaşıllığı çürüdən kimi
Çürüdür ömrümü düzlüyüm mənim.

Sığışmaz hər simə mən ötdüyüm səs,
Səs səsdən keçirər,
sim simdən məni.
Şahların şahı da ayıra bilməz
Gözəllər gözəli dərdimdən məni.

Doyub alın yazım alın tərimdən,
Qarası ağıyla qoşa tökülür.
Asmışam Vətəni kirpiklərimdən
Gözümdən Xocalı, Şuşa tökülür...

Hər giley oxunmaz üzümdən indi,
Yaşınmaz yaz ömrün qızıl günləri.
Boylanır şehlənən gözümdən indi
Kədərin Füzuli qızılgülləri!..

Bu gün kitabımın birini satdım,
Bir kilo ət aldım balalarıma.
Bu gün də başımı şeirlə qatdım
Qafiyə tapmadım bəlalarıma ...

MƏN KƏNDDƏN ÇIXANDA GECƏ YARIYDI

Mən kənddən çıxanda gecə yarıydı,
Söyüdlər yol üstdə tellənirdilər.
Coşan ürəyimin duyğularıydı,
Sinəmdən süzülüb sellənirdilər.

Enib dərələrin, düzlərin üstə
Gecə öz diliylə layla deyirdi.
Baş qoyub dağların dizləri üstə
Yollar şirin-şirin mürgüləyirdi.

Mehlə sığallanıb nazilən otlar
Şehli nəvazişə bükülürdülər.
Ayağım altında əzilən otlar
Torpaqdan yapışıb dikəlirdilər.

Qönçələr çəmənə pıçıltı salıb
Yuxulu-yuxulu çiçəkləyirdi.
Yumru evlərini çiyninə alıb
İlbizlər izimlə imək̈ləyirdi.

Gedirdim, gecənin haysız-haraysız,
Həzin nəğməsindən doyammamışdım.
Qəlbimdə sübhədək oyaq qalan qız
Hələ yuxusundan oyanmamışdı...

Mən kənddən çıxanda gecə yarıydı,
Ay örpək çəkmişdi çöllərin üstə.
Heyrətim yolunu azan arıydı -
Uyuyub qalmışdı güllərin üstə ...

ANAMA

Ürəyim üstündə şam bənövşəsi,
Ayrı nəyim var ki, yanası, anam.
Sənsən gülşənimin qəm bənövşəsi
Sənsən göz yaşımın sonası, anam.

Ovunmaz bu dərdim hər simin üstə,
Qar üstdən qar yağır səbrimin üstə,
Elə ağlayardım qəbrinin üstə,
Qorxdum ki, uçular binası, anam...

Bu zalım fələyin üzü ağ olsun,
Dağı düzdə qalsın, düzü dağ olsun,
Sevməyən kim varsa canı sağ olsun
Məni sevənlərin anası, anam...

QURUDUB GÖNDƏRMƏ BƏNÖVŞƏLƏRİ

Əlimə alınca əlim qurudu.
Qurudub göndərmə bənövşələri.
Nəfəsim qurudu, dilim qurudu
Qurudub göndərmə bənövşələri.

Çatmadım bu il də yaza bilirəm,
Darıxa bilirəm, susa bilirəm,
Özüm quruyanda dözə bilirəm
Qurudub göndərmə bənövşələri.

Əl saxla, dər saxla, təzə-tər saxla,
Çıxart ürəyimi, üstə sər, saxla,
Mənə də ölməyə bir az yer saxla
Qurudub göndərmə bənövşələri.

GECƏLƏR DAĞLARA BAXA BİLMİRƏM

Bu qışın qarını duman əritdi,
Əritdi, özü də yaman əritdi...
Bu qış da ürəyim güman əritdi,
Gecələr dağlara baxa bilmirəm...

Üstümə qayalar, dağlar sürüşür,
Dağları bağlayan tağlar sürüşür,
Bulaqlar sürüşür, -
ağlar sürüşür,
Gecələr dağlara baxa bilmirəm...

Bu Araz, bu da ki, Samur dağları,
Bürüyüb yamyaşıl mamır dağları,
Dağ çəkir sinəmə çadır dağları,
Gecələr dağlara baxa bilmirəm.

Üzülür ağrıdan Ağrının canı,
Gözümdən tökülür Murovun qanı,
Şuşanın dağları kəsir aranı,
Gecələr dağlara baxa bilmirəm.

Qaldırın üstümə uçan dağları,
Uçunur Kəlbəcər, Laçın dağları,
O mənfur buxovdan açın dağları,
Gecələr dağlara baxa bilmirəm.

Bir mehəm, Mehrinin mehrinə acam,
Dərbəndin dumanı dağılar haçan,
Şahəm Şah düzündən Şah dağınacan...
Gecələr dağlara baxa bilmirəm.

Dağdan da ağırdır daş tənhalığı,
Ürək tənhalığı, baş tənhalığı.
Asılıb zirvədən qış tənhalığı
Gecələr dağlara baxa bilmirəm...

Nəsiminin zərrəsi



Məqsəd Nur

Riyaziyyatdan əvvəl, fizikadan sonra, kimyanın içində hissetmə gücünə malikdir.

Axı Nəsimi də deyirdi: “Zərrə mənəm...”

Bir halda ki, sözə Əzəl, Əbədi və sair adlar qoşuruq, həm də onun vasitəsilə bu qədər suala cavab axtarıb tapmağa can atırıq, hələ də tapa bilmədiyimiz həqiqətləri məhz sözlə vəsf edirik, deməli, sözün də tərkibində aşkar edə bilmədiyimiz sirlər var...

Necə ki, bu günlərdə Avropa Atom Araşdırmaları Təşkilatının məlumatına görə, qırx ildən də çox bir müddətdən sonra dünya alimləri birlikdə Böyük Adron Kollayderində alt kvark və antikvarkdan ibarət olan “Bd” hissəciyinin bir cüt muon və antimuona çevrilməsini qeydə alıblar. Bunu sadə dildə izah etsək, belə alınar: daha bir zərrəcik tutmuşuq, o, bizdən gizlənmək istəsə də, sirrini açmışıq. O zərrəcik atomdan yüz milyard dəfə kiçik olan, ölçüləri “zeptometr” termini ilə ifadə edilən mikroskopik aləmi təsvir edir. Yəni tam kəşf edilməmiş, lakin tamamilə yeni elementar hissəciklərin və təbiət qüvvəsinin gizləndiyi ultrakiçik miqyasların qapısını döymüşük. Bizi oraya buraxacaqlarmı? Söz yox, gəlib bu yerlərə çatmışıqsa, qapını açacaqlar, amma ondan sonra elə bu nadinc, “xətakar” zərrəciklər bəlkə də bizə daha yeni qırx qapı göstərəcəklər ki, onları da açmağa çalışacağıq. Beləcə, biz zərrəciyə, zərrəcik isə bizə çevrilincə yol gedəcəyik. O mənada ki, biz də zərrəciyik, amma onun sürətinə və aləminə qoşulma anımız hələ çox uzaqdadır, həm də qaçılmazdır.

Onu da xüsusi qeyd etməliyik ki, bu işi başa çatdırmaq üçün Böyük Adron Kollayderində xüsusi mühit yaradılıb, milyardlarla vəsait xərclənib. Necə deyərlər, alimlər qırx il ərzində usanmadan kvark ovuna çıxıblar. Lakin o zərrəciklərin daha kiçik zərrəciklərə bölünməsini (çevrilməsini) tutmaq (qeydə almaq) üçün yeni dedektorlar, robot (maşın) və Sİ (Süni İntellekt) lazım olub.

Nəsimi “Gövhəri-laməkan mənəm, kövnü məkanə sığmazam” deyərkən, görəsən, hansı məkan və hansı zaman içrə idi? Axı kollayderdəki Sİ kvarkı ovlamaq üçün həm də alimlərə mane olan fon səs-küyünü süzgəcdən keçirib onun öz səsini aşkar edə bilmişdi.

Bəlkə, o da özünə elə-belə Nəsimi deməmişdi? Bəlkə, susarkən, məhz o səsi eşitmişdi?

Yaz qarı bir daşın donqarı üstə,
İzim yox bu yazın son qarı üstə,
Dərd yağır dərdimin yonqarı üstə,
Gecələr dağlara baxa bilmirəm...

DÜNYA KÖKDƏN DÜŞÜB

Dünya kökdən düşüb, Zakir əfəndi,
Dünyanın simləri yerində deyil.
Kim kimi kökləyir,
kim kimi qırır,-
Kimin də kimləri yerində deyil...

Yuyulmaz Qəzzada hərbin əlləri,
ABŞ-ın lilləri, Qərbin lilləri...
Batıb Suriyada haqqın zilləri
İraqda bəmləri yerində deyil...

Kimdi saya salan türk çabasını,
Səriblər üstünə fars libasını,
Pozdular ərəbin əlifbasını,
“Mim”ləri, “Cim”ləri yerində deyil...

Hər körpə qəbrində can havası var,
Qisas havası var,
qan havası var,
Qiyamət adında son havası var,-
Sonun iqlimləri yerində deyil.

Şərt kəsmir bu şumlar,
bu yabalıqlar,
Oynadır ümmanı xırda balıqlar,
Yer-yerdən böyüyür xarabalıqlar
Göyün təlimləri yerində deyil...

Dünya kökdən düşüb, Zakir əfəndi,
Dünyanın simləri yerində deyil.

QAYTARIN YERİNƏ DAR AĞACINI

Qaytarın yerinə dar ağacını,
Çadır ağacından bezmişəm daha,
Abır ağacından bezmişəm daha,
Səbir ağacından bezmişəm daha...

Yaşı çoxdan ötüb bu çadırların,
Dirəyə söykənən daşı ağarıb.
Yaşı çoxdan ötüb bu abırların
Ayaqda, ətəkdə başı ağarıb.

Yaşdı bu torpağın çadır bələyi,
Ahıl yaşındadı çadırlar indi.
Ovutmur ruhumu abır küləyi
Boşuna ulayır abırlar indi...

Içində gizləyir qoca sirrləri,
Cavan gizləməkdən bezib çadırlar.
Döyüşdən, savaşdan kənar yerləri
Utana-utana gəzib çadırlar.

Silahlar çadırda gecələyirlər,
Günahlar çadırda gecələyirlər,
Sabahlar çadırda gecələyirlər,
Səbir ağasından bezmişəm daha...

Yolumda çadırla ölüb bu dünya,
Üzümə çadırla gülüb bu dünya,
Qədrimi çadırla bilib bu dünya
Qədir ağacından bezmişəm daha...

Üstümdə çadırla əsib bu dünya,
Yazımı çadırla yazıb bu dünya,
Qəbrimi çadırla qazıb bu dünya
Qəbir ağacından bezmişəm daha...

Səngər yox bu boyda səhmin içində,
Zəfər yox bu boyda zəhmin içində,
Fərəh yox bu boyda fəhmin içində,
Kəsər yox bu boyda rəhmin içində
Xətir ağacından bezmişəm daha...
Qaytarın yerinə dar ağacını,
Çadır ağacından bezmişəm daha...

Qaytarın yerinə dar ağacını
Abır ağacından bezmişəm daha...
İftira yuvası, yalan yuvası,
Əsarət yuvası, talan yuvası,
Bu ağ sarayların, boz sarayların,
Qotur ağacından bezmişəm daha...
Əyri harayların, düz harayların
Çopur ağacından bezmişəm daha...

... Dilimdə bir cahad şeiri oynayır,
Köksümdə bir güllə yeri oynayır,
Abır ağacından bezmişəm daha...
Səbir ağasından bezmişəm daha...
Çadır ağacından bezmişəm daha...
Qaytarın yerinə dar ağacını...

Səssiz irəliləyən təhlükə...

Diabetdən qorunmaq üçün nələri bilməliyik?

İnsan bəzən özünü tamamilə sağlam hiss edir, gündəlik həyatını əvvəlki kimi davam etdirir, sevdiyi yeməklərdən zövq alır, işə gedir, ailəsi ilə vaxt keçirir. Lakin bütün bunların arxasında orqanizmdə səssiz şəkildə inkişaf edən bir problem gizlənə bilər. Nə ağrı olur, nə də hər zaman özünü dərhal büruzə verir. Söhbət müasir dövrün sağlamlıq problemlərindən biri olan şəkərli diabetdən gedir.

Diabet yalnız yaşlı insanların xəstəliyi hesab olunmur. Hərəkətsiz həyat tərzi, qeyri-sağlam qidalanma, artıq çəki, irsi meyillilik və digər amillər bu xəstəliyin yayılmasına təsir göstərir. Üstəlik, diabet insanın yalnız qan şəkəri göstəricilərinə deyil, ürəyinə, böyrəklərinə, gözlərinə, sinir sisteminə və ümumi həyat keyfiyyətinə təsir edə bilir.

Hər il noyabrın 14-də qeyd olunan Ümumdünya Diabetlə Mübarizə Günü də məhz bu təhlükəyə diqqət çəkmək, insanları maarifləndirmək, erkən diaqnostikanın və düzgün müalicənin əhəmiyyətini xatırlatmaq məqsədi daşıyır. Bu günün əsas mesajı sadə, lakin həyati əhəmiyyətlidir: diabetlə yaşamaq mümkündür, əsas məsələ onu vaxtında tanımaq və düzgün idarə etməkdir.

Xəstəliyin yaranma mexanizmi bütün insanlarda eyni deyil. Diabetin bir neçə əsas növü mövcuddur:

Birinci tip diabet - immun sisteminin səhvən mədəaltı vəzinin insulin istehsal edən hüceyrələrinə hücum etməsi nəticəsində yaranır. Bu zaman orqanizm insulin istehsal etmək qabiliyyətini itirir. Daha çox uşaqlarda və gənclərdə aşkar edilsə də, istənilən yaşda ortaya çıxa bilər.

İkinci tip diabet - ən geniş yayılmış formadır. Bu zaman hüceyrələr insulinə qarşı həssaslığını itirir, mədəaltı vəzi isə artan tələbatı qarşılamaq üçün kifayət qədər insulin istehsal edə bilmir. Artıq çəki, xüsusilə qarın nahiyəsində piylənmə, fiziki hərəkətsizlik, yaş və irsi meyillilik risk faktorları sırasındadır.

Hestasion diabet - hamiləlik dövründə meydana çıxan və adətən doğuşdan sonra azalan qan şəkərinin yüksəlməsidir. Lakin bu hal həm ana, həm də körpə üçün müəyyən risklər yarada, gələcəkdə ikinci tip diabet ehtimalını artıra bilər.


Burada vacib bir məqam var: diabet yalnız şirniyyat yeməyin nəticəsi deyil. Şəkərli qidaların həddindən artıq istehlakı, ümumilikdə qeyri-sağlam qidalanma və artıq çəki ikinci tip diabet riskini artıra bilər. Ancaq xəstəliyin yaranmasında genetik və metabolik amillər də mühüm rol oynayır.

Hansı əlamətlərə diqqət yetirməliyik?

Diabetin ən təhlükəli tərəflərindən biri onun uzun müddət gizli qala bilməsidir. Xüsusilə, ikinci tip diabet zamanı insan illərlə xəstəliyindən xəbərsiz yaşaya bilər. Bəzən isə diaqnoz yalnız başqa bir sağlamlıq problemi araşdırılarkən qoyulur.

Əslində, orqanizm müəyyən siqnallarla köməyə ehtiyacı olduğunu bildirir. Bu əlamətlərə diqqət yetirmək vacibdir:

Davamlı susuzluq və ağız quruluğu;
Tez-tez sidiyə getmək, xüsusilə gecələr;
Səbəbsiz yorğunluq və halsızlıq;
İştahanın artmasına baxmayaraq çəki itirmək;
Görmənin bulanıqlaşması;
Yaraların gec sağalması;
Əl və ayaqlarda keyimə, iynələnmə hissi.



Bu əlamətlərin hər biri başqa xəstəliklər zamanı da müşahidə oluna bilər. Buna görə yalnız simptomlara əsasən diabet diaqnozu qoymaq olmaz. Qanda qlükoza səviyyəsinin yoxlanılması və həkim müayinəsi vacibdir.

Yanlış təsəvvürlər də təhlükə yaradır...

Xəstəliklə mübarizədə tibbi biliklər qədər cəmiyyətdə formalaşmış yanlış fikirlərin aradan qaldırılması da vacibdir. Çünki bəzən insanlar məhz bu təsəvvürlərə görə müayinədən yayınır və ya müalicəni gecikdirirlər. Ən çox rast gəlinən yanlış fikirlərdən biri diabet xəstələrinin heç vaxt şirniyyat yeyə bilməyəcəyidir. Əslində, qidalanma fərdi şəkildə tənzimlənməli, karbohidratların miqdarı və ümumi qida balansı nəzərə alınmalıdır.

Digər yanlış fikir isə diabetin yalnız yaşlı insanlarda yarandığıdır. Halbuki birinci tip diabet uşaqlarda və gənclərdə də müşahidə olunur, ikinci tip diabet isə son illərdə daha gənc yaşlarda da qeydə alınır. Bəziləri də düşünür ki, qan şəkəri normaya düşübsə, artıq müalicəyə ehtiyac yoxdur. Halbuki göstəricilərin yaxşılaşması müalicənin nəticəsi ola bilər və həkimlə məsləhətləşmədən dərmanların dayandırılması düzgün deyil.

Yeganə BAYRAMOVA

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66

Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4312
Sifariş: 1505
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova